# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 36 (3452) Cümə axşamı / 15-21 sentyabr 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Sərhəddə buferzona yaradıla bilər



**Elman Məmmədov,**
Xocalının, Şuşanın deputatı

*Ermənistan atəşkəsi pozmaqda davam edir, artıq aramsız davam edən erməni atəşləri "Qətiyyətli cavab" əməliyyatı ilə susduruldu. Ermənistan tərəfi isə yaratdığı bu qarşıdurmadan böyük xəbərlər düzəldərək, yenə də özlərini yazıq kimi təqdim edib beynəlxalq ictimaiyyəti üzərimizə qaldırmağa çalışırlar. Bu istiqamətdə hafta.az-a müsahibə verən Xocalının, Şuşanın deputatı Elman Məmmədov çox ciddi və həllini gözləyən təxirəsalınmaz məqamlara diqqət çəkib.*

*Qərb erməniləri Cənubi Qafqazda ikinci Ukrayna yaratmağa hazırlayır*

Səh. 2

# Növbəti erməni təxribatı

***S**entyabrın 12-dən başlayan gərginlik, təxribatlar bir daha göstərdi ki, Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsinə ən böyük manea Ermənistandır. Daha doğrusu, İrəvanda hakimiyyətdə oturanların, siyasətlə məşğul olanların avantürist siyasəti, cəmiyyətin xəstə təxəyyülə, boş xəyallara əsaslanan düşmənçilik ruhunda böyüdülməsidir. Ermənistan rəhbərliyi sərhəddəki son təxribatlardan sonra növbəti dəfə hərbi-siyasi avantürasının cavabını artıqlaması ilə aldı. Azərbaycan Ordusu 50 şəhid versə də, növbəti qəhrəmanlıq salnaməsini yazdı. Birgecəlik əməliyyat İrəvanın son iki ildə əldə etdiyi "nailiyyətlər"i yerlə-yeksan etdi.*



### Təxribatın səbəbləri

**Bəs sərhəddəki bu olaylara aparan səbəblər nə idi? Məlumdur ki, II Qarabağ savaşındakı tarixi zəfərdən sonra Azərbaycan diplomatik-siyasi müstəvidə ardıcıl şəkildə qarşısına qoyduğu məqsədlərə nail olmaqdadır.**

2020-ci il 10 Noyabr üçtərəfli bəyanatının ardından bölgədə yaranan yeni reallıqlara uyğun olaraq, Minsk qrupunun fəaliyyəti tarixə qovuşdu, 30 illik işğala son qoyuldu. Azərbaycan daxilində məskunlaşan separatizmin beli bir daha dirçəlməyəcək şəkildə qırıldı. "Böyük Ermənistan", "yeni ərazi" iddialarına ağır zərbə vuruldu. İki ilə yaxın aparılan danışıqlarda "Dağlıq Qarabağ", "status" kimi ifadələr ortadan qaldırıldı. Lakin rəsmi Bakının qarşısında dayanan ən mühüm məsələlər üçtərəfli bəyanatda İrəvanın imzası ilə üzərinə götürdüyü öhdəliklərə tam və qeyd-şərtsiz əməl edilməsinə nail olmaq idi. Buraya hərbi qalıqlarının birdəfəlik ərazimizdən çıxarılması, sərhədlərin müəyyənləşdirilməsi, qarşılıqlı ərazi bütövlüyünün tanınması çərçivəsində sülh sazişinin imzalanması, kommunikasiyaların, xüsusilə də "Zəngəzur dəhlizi"nin açılması daxildir.



Lakin Ermənistan rəhbərliyi yuxarıda qeyd olunan öhdəliklərin heç birini yerinə yetirmək istəmir. Əksinə, müxtəlif bəhanələr, təxribatlarla Azərbaycana qarşı əsası olmayan iddialar qaldırır. Ümumilikdə, regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj edir, üzdə "sülh tərəfdarı" olduqlarını bəyan etsələr də, reallıqda yenidən öz çirkin, revanşist niyyətlərini həyata keçirtmək üçün alt baza formalaşdırmaqla məşğul idilər. Son aylarda İrəvanda revanşist qüvvələrin "Qarabağa müstəqillik", "itirilən torpaqların geri qaytarılması naminə birləşmək" kimi çağırışlarının da şahidi olurduq.

Təbii ki, Azərbaycanın milli maraqlarını, suverenliyini təhdid edən bu separatçı, revanşist çağırışların reallaşması üçün 44 günlük müharibədə darmadağın edilmiş erməni ordusunun bərpası istiqamətində addımlar atılırdı. Ermənistan hakimiyyəti Rusiya, ABŞ, Avropa ölkələrindən silah alınması və ordunun təchizat məsələlərinin həlli istiqamətində iş aparırdı. Təxribat əməlləri tək bununla da yekunlaşmır, paralel olaraq Qarabağa hərbçilər və silah göndərilir, orada yeni müqavimət nöqtəsi yaradılmasına cəhdlər olunurdu. Digər tərəfdən, Ermənistan Azərbaycanla sərhəddə yeni hərbi obyektlər yaradır, Kəlbəcər və Laçın istiqamətində gələcək hücum üçün plasdarm formalaşdırılırdı.

Bu iddiaların paralel olaraq Ermənistan baş nazirinin siyasi bəyanatları, müxtəlif rəsmilərlə görüşlərdə ortaya atılan "əsassız arqumentlər"lə də mütənasib formada uzlaşdığını müşahidə edə bilərik. Paşinyan bu yaxınlarda Vladivostokda keçirilmiş forumda çıxışı zamanı faktiki olaraq yeni hərbi qarşıdurma iddiası səsləndirdi. Sərhəddəki təxribatlardan öncəki 10 gün müddətində isə Ermənistan mətbuatı, rəsmiləri Azərbaycanın guya "sərhəddə hücuma keçəcəyi" barədə xəbərdarlıq etməklə öz təxribatlarına haqq qazandırmaq üçün əvvəlcədən "əsaslar" hazırlayırdılar. Qeyd olunanlar əslində sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu idi. Avqustda Laçın rayon mərkəzinin üçtərəfli bəyanata uyğun olaraq Azərbaycanın nəzarətinə qaytarılmasının erməni revanşistləri üçün nə dərəcədə ağrılı proses olduğunun şahidi oluq ki, bu da Ermənistanda siyasi qarşıdurmalar, ittihamlarla müşahidə edildi. Paşinyan isə öz ampulasına sadiq qalaraq hakimyyüəti üçün təhdid yaradan daxildəki bu təzyiqləri neytrallaşdırmaq üçün sərhəddə növbəti hərbi-siyasi avantürasına start verdi.

### Təkrarlanan "Tovuz ssenarisi"

**Əslində, son yaşanan hadisələrin ssenarisi Azərbaycana heç də yad deyil. 2020-ci ilin Tovuz hadisələrindən öncə də məlum proseslərin şahidi olmuşduq.** Ermənistan Azərbaycana qarşı ittihamlar səsləndirir, sərhəddə bölgənin ən önəmli kommunikasiya arteriyalarının keçdiyi ərazidə təxribatların bazasını hazırlamaq üçün hərbi mövcudluğunu artırırdı. İstər 2020-ci ilin avqust, istərsə də sentyarbın 12-də baş vernlərdən əvvəl Azərbaycan tərəfi dəfələrlə erməni təxribatlarının onlara baha başa gələcəyini, ağır zərbələrlə cavab veriləcəyini açıq şəkildə bəyan etmişdi. Həmin dövrdə olduğu kimi, bu dəfə də Azərbaycan Ermənistanın hərbi-siyasi təxribatına məruz qalaraq cavab vermək və öz təhlükəsizliyinin təmin olunması üçün adekvat addımlar atmaq məcburiyyətində qaldı.

### Hərbi əməliyyatın nəticələri

**Sərhəddə baş verən təxribatlardan sonra yayılan məlumatlarda da göründü ki, Azərbaycanın cavab tədbirləri Ermənistana çox baha başa gəlib. İlk öncə onu bildirək ki, son iki ildə ardıcıl olaraq 4-cü dəfə Ermənistanın siyasi-hərbi dairələri regionda formalaşmış yeni reallığın dəyişdirilməsi isitqamətində atılan istənilən addımın Ermənistanın özü üçün yeni faciələrə səbəb olacağını bir daha gördülər.** Bir gecədə endirilən cavab zərbələri ilə Ermənistanın Azərbaycanla sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu, təhlükəsizliyimizə təhdid yaradan bütün hərbi təyinatlı obyektlər darmadağın edildi. Ekspertlərin də dəyərləndirmələrinə görə, bu obyektləri bərpa etmək üçün Ermınistana ən azı 4-5 il vaxt lazımdır. Ermənistanın xeyli sayda hərbi texnikası, milyarddan artıq dəyəri olan iki S-300 raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarla postu məhv edildi.

Səh. 2

MÜSAHİB



**Nadir İsrafilov,**
təhsil eksperti

■ Təlaş yayan məktəb rəhbərlərinə ciddi xəbərdarlıq edilməlidir

■ Keyfiyyətli təhsil adı ilə uşaqlarımızı ifrat dərəcədə yükləməklə, onları bir növ istismar etmiş oluruq

■ Mən müəllimlərin savadsız olmasına dair istənilən iddialarla heç bir halda razılaşa bilmərəm

Səh. 7

GÜNÜN FOTOSU...



**Şəhid Vadim Qocayev və atası Alik Qocayev eyni gündə dəfn edildilər**

GÜNÜN SİTATI

*"Azərbaycan-Ermənistan sərhədində baş vermiş toqquşmalar zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət diləyirəm, yaralılara şəfa arzulayıram. Qardaşım Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan xalqına başsağlığı verirəm"*



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



**Dişi çıxarılıb, amma zəhəri qalır**

## "Paşinyan proseslərə nəzarət edə bilmir..."

**Etibar Məmmədov,**
AMİP lideri, istiqlalçı deputat

Fransanın o qədər qeyrəti yoxdur ki, təkbaşına Rusiya ilə üzbəüz gəlsin və öz qoşununu Ermənistana göndərsin.

Səh. 3

STATİSTİKA



■ **Bu ilin yanvar-iyul aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 35646 nikah və 8862 boşanma halları qeydə alınıb. Bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında qeyd olunub.**

Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,2-dən 6,1-ə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,7-dən 1,5-ə düşüb.



Səh. 9

## Ermənistan dinc sakinləri atəşə tutdu

PREZİDENTİN İŞ GÜNÜ

## Emmanuel Makron Prezident İlham Əliyevə zəng edib



**Fransa Respublikasının Prezidenti Emmanuel Makron sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Fransa Prezidenti Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidentlə əlaqədar narahatlığını ifadə etdi.

Dövlətimizin başçısı bu genişmiqyaslı təxribatlara görə məsuliyyətin bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü və Azərbaycan tərəfindən cavab tədbirlərinin görüldüyünü diqqətə çatdırdı.

Həmçinin telefon danışığı əsnasında regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, sülh gündəliyinin davam etdirilməsinin vacibliyi vurğulandı.

Dövlət başçısı Fransanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasının gündəliyinə Ermənistanla Azərbaycan arasında sərhəddə yaranmış gərginlik məsələsinin çıxarılacağına toxunaraq, bu müstəvidə müzakirələrin obyektiv əsaslarla aparılmasının vacibliyini bir daha diqqətə çatdırdı.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Toivo Klaar sentyabrın 12-dən 13-nə keçə gecə dövlət sərhədində baş vermiş gərginliklə bağlı narahatlığını ifadə etdi, bu xüsusda Avropa İttifaqı rəhbərliyinin Ermənistanın baş naziri və Azərbaycan Prezidenti ilə telefonla danışdığını diqqətə çatdırdı. Dövlət başçısı bu genişmiqyaslı təxribatın məhz Ermənistan tərəfindən törədildiyini qeyd edərək, buna görə bütün məsuliyyətin bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Brüsseldə aparılmış müzakirələrin davamı olaraq sülh gündəliyini dəstəklədiyini vurğuladı.

Dövlət başçısı Azərbaycanın vəziyyətin sabitləşdirilməsi və gərginliyin aradan qaldırılması üçün zəruri addımlar atmasına baxmayaraq, əldə olunmuş atəşkəsin Ermənistan tərəfindən pozulmasının davam etdiyini bildirdi.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə regional vitse-prezidenti Anna Byerdeni qəbul edib.**

Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında 30 illik uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı. Görüşdə gələcək layihələr və Dünya Bankının Azərbaycan hökumətinə dəstəyi ilə bağlı məsələlər müzakirə olundu, strateji sahələrdə, o cümlədən enerji, kommunikasiya sahələrində və Qarabağın bərpasında Dünya Bankının iştirakı və tərəfdaşlığın daha gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Sərhəddə buferzona yaradıla bilər

***Ermənistan atəşkəsi pozmaqda davam edir, artıq aramsız davam edən erməni atəşləri "Qətiyyətli cavab" əməliyyatı ilə susduruldu. Ermənistan tərəfi isə yaratdığı bu qarşıdurmadan böyük xəbərlər düzəldərək, yenə də özlərini yazıq kimi təqdim edib beynəlxalq ictimaiyyəti üzərimizə qaldırmağa çalışırlar. Bu istiqamətdə hafta.az-a müsahibə verən Xocalının, Şuşanın deputatı Elman Məmmədov çox ciddi və həllini gözləyən təxirəsalınmaz məqamlara diqqət çəkib.***

## Müsahib

***- Elman müəllim, erməni separatçıları atəşkəsi intensiv şəkildə pozmaqda davam edir, üstəlik, Rusiya sülhməramlılarının nəzarətində olan Xocalının Naxçıvanlı kəndindən Xankəndiyə yol çəkirlər...***

- Dediyiniz Naxçıvanlı kəndindən Xankəndinə yol var. Naxçıvanlı kəndindən asfalt yol Əsgəran qəsəbəsinə gəlir, oradan da Xankəndinə gedir. Əgər onlar ikinci yol çəkirlərsə, o zaman bu yol Naxçıvanlı kəndindən, Kəklik dağının üstündən Harop kəndindən keçib Xankəndinə birləşəcək. Ancaq o dağ yoludur, çox çətin yoldur. Həmin yol bir növ araba yolu kimidir. İndi yəqin ki, o yolu təmir edib hərbi məqsədlər üçün istifadə edəcəklər.

Siz deyirsiniz ki, bu yol sülhməramlıların gözü qarşısında çəkilir. Əvvəla, bunlar sülhməramlı deyil. Onlar Rusiya dövlətinə məxsus hərbi kontingentdir. Heç kim bunlara "sühməramlı" mandatı verməyib, bunlar öz-özlərinə "sülhməramlı" deyirlər. Azərbaycan ərazilərinə gəldikləri gündən də erməniməramlılıqla məşğuldurlar.

Rusiya hərbi kontingenti ermənilərə hər şəraiti yaradır. Onlar erməniləri maliyyələşdirir, yanacaq verirlər. Bəs Rusiyadakı cinayətkar erməni Xankəndidə necə oturub? Onu ruslar özləri ora gətiriblər, müdafiə edirlər, qoruyurlar. Təlxək Paşinyan Vladivastoka gedib-gələndən sonra sərhəddə atəşkəsin pozulması daha da intensivləşdi, oyunlar təzədən başlandı.

***- Ermənilərin başlatmaq istədikləri üçüncü savaş onlara nə verə bilər?***

- İndi də bütün dünyaya səs salıblar ki, Azərbaycan Ermənistana hücum edib, mülki əhaliyə atəş açıb. Bu, növbəti erməni məkiri, erməni təxribatı, erməni şəridir. Ermənilər mütəmadi olaraq mövqelərimizi atəşə tuturlar, ərazilərimizi minalayır, qeyri-qanuni səfərlər təşkil etməklə digər qanunazidd əməllərini davam edirlər.

Azərbaycan sərhədlərini pozurlar. Yeni tikilən yoldan düşmənin nə qədər canlı hərbi birləşməsi, separatçılar, cinayətkarlar var ki, hamısı da Rusiya hərbi kontingentinin nəzarət etdiyi ərazilərdən ərazilərimizə daxil olurlar. Yəni regionda bütün problemi yaradan ermənilərdir. Bunun günahını Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Beynəlxalq aləmdə belə fikir yaratmaq istəyirlər ki, guya Azərbaycan Ermənistan ərazisinə müdaxilə edir.

Ermənilər bununla "bəlkə də qaytardılar" xülyalarını nümayiş etdirir, bu cür xəstə xəyallarla yaşayırlar. Ən böyük günahkar isə erməniləri bu xəstə düşüncələrə sövq edənlərdir, bunlara yalançı vəd verənlərdir. Ermənilər tarixin heç bir dövründə müstəqil hərəkət edib, siyasət yürütməyiblər. Həmişə xaricdən gələn pullarla, xaricdən verilən tapşırıqlarla idarə olunublar. Bu gün də o cür davam edirlər.

Ermənilər bir tərəfdən də Rusiya tərəfindən idarə olunur. Rusiya yaxşı düşünsə bir qədər ehtiyatlı olar. Qərb erməniləri Cənubi Qafqazda ikinci Ukrayna yaratmağa hazırlayır. Rusiya bunu götür-qoy edib ermənilərin bu təxribatlarının qarşısını almaq üçün çalışmalıdır. Rusiya Ukraynadakı aqibətini gözünün qabağına gətirməlidir. Hansı ki, bunu Qərb Rusiya üçün hazırladı. İndi də Qərb hər tərəfə oynamağı bacaran, çox mahir oyunçu olan ermənilərdən istifadə edib yenidən aranı qarışdırmaq istəyir. Təlxək ermənilər də bu fitvalara, bu vədlərə inanıb düşüb ortalığa. Bunlar fikirləşməlidir, 44 günlük müharibənin dərslərindən nəticə çıxarmağı bacarmalıdırlar. O müharibədən sonra keçən bu iki ilə yaxın müddətdə Azərbaycan Ordusunun vaxtaşırı keçirdiyi antiterror əməliyyatlarının nəticələrindən dərs almalıdırlar. Əminəm ki, ermənilər bu yoldan əl çəkməsələr, Ermənistan adlı dövlətin mövcudluğu sual altında qala bilər. Azərbaycan öz ərazilərini və öz əhalisini qorumaq üçün lazımi tədbirlər görməyə qadirdir, görür və görəcəkdir. Ermənilərin sərhəddə diversiya hərəkətləri Azərbaycanı öz sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün bir az da irəliyə gedərək bir bufer zonası yaratmağa məcbur edəcək. Ermənistan Azərbaycanı buna məcbur edəcək. Onlar bizi məcbur edəcəklər ki, yeni çəkilib ermənilərin nəzarətinə verdiyimiz yolda Rusiya hərbi kontingentinə etibar etməsin və öz qoşunlarını o ərazilərdə yerləşdirsin. Ermənilər nəticə çıxarmasalar, onların varlığı sual altına düşəcək.

Ermənilər fikirləşə bilmirlər. Cənab Prezidentin dediyi kimi, Dəmir Yumruq həmişə bunların başlarının üstündə olmalıdır. Bunlara güc nümayiş etdirməlisən. Bunlar güc görəndə sülhə gəlib yerlərində otururlar. Yəni ermənilərdən Dəmir Yumruğu əksik eləmək lazım deyil. Onlar normal insan kimi başa düşmürlər.

***- Son Brüssel danışıqlarında erməni baş nazir sülh gündəliyindən bəhs etdi. Ermənistana qayıdan kimi isə əks-bəyanatlarla çıxış etdi, yenə "status", yenə "ATƏT-in Minsk qrupu", yenə ermənilərin təhlükəsizlik məsələsindən danışdılar...***

- Regionda gedən oyunun əsas ideyası, məqsədi bəllidir. Bu gün Cənubi Qafqaz uğrunda Rusiya ilə Qərb arasında qanlı bir savaş gedir. Qərb Rusiyanı Cənubi Qafqazdan çıxarmaq üçün çalışır. Rusiya da Qərbi Cənubi Qafqaza buraxmamaq üçün çalışır. Onlar üçün maşa Ermənistandır. Rusiya və Qərb hər biri öz maraqları baxımından bu maşadan istifadə edib münaqişənin qarşısını alırlar. Buna görə də təhlükə bir dəqiqə də sovuşmur. Bu maraqlar Cənubi Qafqazda toqquşur. Ermənilər də tarixən belə düşünürlər ki, mahir oyunçulardır və hər iki tərəflə oynamağı, bəhrələnməyi bacarırlar. Fikirləşmirlər ki, elə tarix boyu daş buna görə başlarına düşüb.



**Elman Məmmədov,**
Xocalının, Şuşanın deputatı

Burda nə Qərb, nə də Rusiya ermənilərlə "əmioğlu" deyil. Erməniləri köçürüb bizim tarixi torpaqlarda ona görə dövlət qurublar ki, daim bizə qarşı alət kimi istifadə etsinlər.

***- Brüsseldə Şarl Mişelin vasitəçiliyi ilə sanki əldə olunmuş müəyyən razılaşmalar Avropa İttifaqının mövqeyini zəiflətməyə yönələ bilərmi?***

- Əlbəttə ki, məqsəd həm də budur. Bu gün beynəlxalq aləmdə baş verən hadisələrə baxın: Ukraynada gedən müharibənin dünyada yaratdığı duruma nəzər salın. Ukraynada Avropa və Qərb Rusiyaya qarşı dayanb, ümumilikdə bu deyilməsə də, Ukraynada faktiki 3-cü dünya müharibəsi gedir. Qərblə Amerika bir tərəfdən, Rusiya digər tərəfdən. Belə olduğu təqdirdə, bu üç dövlət ermənilərin, elə özlərinin də iddia etdiyi kimi, bir təşkilatda birləşib nəyisə həll edə bilərlər. Bu üç dövlət 30 il müddətində torpaqlarımızn işğaldan azad olunması ilə bağlı nəsə bir iş gördülər, yox! Yalnız başımızın altına "sülh danışıqları" yastığını qoymaqla məşğul idilər. Bu gün bəyan edirik ki, Azərbaycan öz məsələsini həll edib və daxili işlərimizə qarışmayın, gedin işinizlə məşğul olun. Cənab Prezident dəfələrlə deyib ki, biz öz məsələmizi özümüz həll eləmişik, indi nə istəyirsiz, siz bu təlxək dövləti, milləti qızışdırıb niyə ortaya atırsınız?! Axı onlar ağıllanmasalar, sizin dediklərinizlə, sizin fitvanızla oturub-dursalar Ermənistan dövlətinin sonu gələcək. Ermənistan Azərbaycanın tarixi ərazilərində qurulub. Bizi məcbur edəcəklər ki, öz tarixi torpaqlarımızı geri alaq.

> *Qərb erməniləri Cənubi Qafqazda ikinci Ukrayna yaratmağa hazırlayır*

***- Türkiyədə ekspertlər belə təhlillər verirlər ki, Azərbaycanla sərhəddə atəşkəsi pozmaqla Türkiyəni də oyuna qatmaq istəyirlər...***

- Bu gün maraqlı güclər Yunanıstanı da silahlandırıb Türkiyəyə qarşı qoymaq istəyirlər. Neçə illərdir Türkiyə Rusiyadan "S-400" qırıcılarını almaq üçün Qərb, ABŞ Türkiyəyə düşmən kəsilib. Eləcə də həmin Qərb Türkiyə ilə Rusiyanın yaxınlaşan münasibətlərindən ehtiyat edərək Ermənistanı qızışdırıb ortaya salır ki, müharibə alovlansın və bu da Türkiyə ilə Rusiya arasında qarşıdurmaya səbəb olsun.

Ona görə də bu böyük oyunlardan uğurla çıxmaq üçün daha çox ermənilər diqqətli olmalıdır. Ermənilər fikirləşməlidirlər ki, onlar 100 il qabaqkı - 1915-ci ildəki həyatı yenidən yaşaya bilərlər.

***- Azərbaycan daxilində sülhməramlıların xeyrimizə olmayan təxribatçı davranışlarını müşahidə etməkdəyik. Azərbaycan Ordusu sərhəddə erməni diversantlarına, hərbçilərinə "Qətiyyətli cavab" verdi. Daha hansı qətiyyətli addımlar atılmalıdır ki, Xocalı, Xankəndi və digər ərazilər nəzarətə götürülsün?***

- Rusiya sülhməramlılarının Qarabağda yerləşməsi ilk gündən bizim üçün bir təhlükə mənbəyi olub. Ermənilər bu məqamdan da özləri üçün istifadə etmək məqsədi güdə bilər. Belə ki, separatçılar təxribatlar törətməklə Azərbaycan Ordusunu antiterror əməliyyatı keçirməyə məcbur edirlər. Bu əməliyyatlar zamanı ermənilər, elə sülhməramlıların özləri qəsdən Rusiya hərbi kontingentinə zərər yetirə bilər. Ermənilər bununla Rusiya-Azərbaycan arasında münasibətləri pozmağa çalışa bilər. Heç şübhəsiz, bu da təxribat proqramına daxildir.

Düşünürəm ki, cənab Prezident bütün bunların hesablayıb diqqətli və qətiyyətli addımları ilə prosesin yumşaq həllinə çalışacaq. Bütün hallarda Dəmir Yumruq da yerindədir. Ümidvaram, proseslər addım-addım Azərbaycanın məqsəd və maraqlarına doğru irəliləyəcək. Bu gün də Ordumuzun "Qətiyyətli cavab"ı əbəs yerə verilmədi. Ermənilər bundan dərs almalıdır...

*✍ Tahirə Qafarlı*

# Növbəti erməni təxribatı

◂ əvvəli 1-ci səhifədə

Ermənistanda yüzlərlə yaralı var. Azərbaycan həmin bölgədə bütün nəqliyyat-kommunikasiya sistemini, çox mühüm yüksəklikləri nəzarətə götürdü. Artıq nə indi, nə də gələcəkdə Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək.

Azərbaycan Ordusu cəmi 7 saat davam edən unikal cavab əməliyyatı gerçəkləşdirməklə Ermənistanın uzun müddətdir qurduğu planları alt-üst etdi. Bu əməliyyatın nə dərəcədə uğurlu olduğunu, Azərbaycan Ordusunun peşəkarlığını ermənilər özləri də etiraf etmək məcburiyyətində qalıblar.

Tanınmış erməni hərbi analitik Şiraz Xaçatryanının son olaylara münasibətinə fikir verək: "Çox ciddi proseslər gedir. 12 sentyabrdan 13 sentyabra keçən gecə Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin ön xəttini qıraraq, strateji yüksəklikləri ələ keçirə bildi. Bu strateji nöqtələr bizim onurğa sütunumuz sayıla bilərdi. Azərbaycan Ordusunun hücumlarının istiqamətləri kifayət qədər genişdir və əvvəl-əvvəl Bakının əsas məqsədini bəlli etmək olmurdu. Elə "hərbi taktika" da buna deyirlər. Biz ilk saatlarda nə baş verdiyini heç anlamırdıq. Birdən eşitdik ki, artıq Azərbaycan Ordusu bizim üçün çox vacib bir neçə nöqtəni nəzarət altına götürüb. Gələcəkdə Bakı İrəvanın nəfəsini kəsmək istəsə, bizim üçün strateji yüksəklik sayılan Qızılcıq kəndini (Qarakilsə) də ələ keçirə bilər. Bu, zərgər dəqiqliyi ilə ölçülmüş və uzunmüddətli prespektivə hesablanmış strategiyadır".



### Azərbaycan Ordusu bir daha göstərdi ki...

**Bütün bunlarla yanaşı, hər birimizi üzən ən acı xəbər təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin 50 şəhidinin olması idi.** Lakin unutmayaq ki, adlarını öz qanları, canları bahasına müstəqil Azərbaycanın şanlı tarixinə yazdıran qəhrəmanlarımız Vətən uğrunda, dövlətimizin, xalqımızın milli təhlükəsizliyinə təhdid yaradan təxribatların qarşısını alan zaman şəhid olublar. Ermənistanın son təxribatı nəticəsində həlak olmuş əsgər və zabitlərimiz öz canlarını doğma torpağımızın müdafiəsi, düşmənin yeni təcavüz planlara imkan verməmək üçün qurban veriblər. Onlar 2020-ci ilin iyulunda general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər igidlərimizin qəhrəmanlığını, igidliyini, şücaətini bir daha düşmənə və bütün dünyaya nümayiş etdirdilər. Ermənistan rəhbərliyi, hələ də revanşizm hissini qabartmağa səy göstərən erməni siyasi-hərbi dairələri, onların xarici dəstəkçiləri bir daha gördüləri ki, Azərbaycan dövləti, xalqı özünə təhdid yarada biləcək məqamlarda heç bir təzyiqə, şantaja boyun əymir. Əksinə düşmənlərinin cavabını lazımi anda, lazımi məqamda verir.

Azərbaycan Ordusu bir daha göstərdi ki, Vətəninə qarşı istənilən addımın, təxribatın qarşısını almaq qüdrətindədir. Bir daha Vətəni, dövləti, xalqı uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Onların bizlərə əmanət qoyub getdikləri Müstəqil Azərbaycan daim öz sözünü deyəcək, şəhidlərimizin övladlarının firavan gələcəyi üçün bütün zəruri addımları atacaq.

*✍ Azad Əliyev*

## Müsahib

*AMİP lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün növbəti söhbətimizdə Azərbaycan-Ermənistan sərhədindəki son qanlı qarşıdurmadan sonra yaranmış hərbi-siyasi durum, bundan sonra gözlənilən proseslər, bölgəyə BMT-nin, yaxud ABŞ və Fransanın sülhməramlı qoşunlarının cəlb edilməsi ehtimalları, Zəngəzur dəhlizinin taleyi, həmçinin Ukraynadakı niyyətlərinə çatmayan Rusiyanın "5-ci kalon"unun keçmiş ittifaq respublikaları, o cümlədən Azərbaycanda destruktiv fəaliyyət imkanları və s. mövzularda müzakirə aparmağa çalışdıq.*



**Etibar Məmmədov,**
AMİP lideri, istiqlalçı deputat

# "Paşinyan proseslərə nəzarət edə bilmir..."

***- Ermənistanla sərhəddəki ağır itkilərlə nəticələnmiş son qarşıdurma hansı perspektivdən xəbər verir?***

- Öncə son döyüşlərdə şəhid olmuş bütün oğullarımızın ailələrinə, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığımı yetirmək istərdim... Allah rəhmət eləsin!..

Belə görünür ki, Ermənistan sülhə məcbur edilməsə, proses hələ də davam edəcək. Yəni bu ölkənin Azərbaycanla sülh müqaviləsini imzalamasına mane olan dövlətlər var. Onlar da Ermənistanı təhrik edirlər ki, sülh müqaviləsini imzalamaqdan yayınsın. Əsas məsələ də 10 Noyabr üçtərəfli bəyanat -razılaşmasının müddəalarının yerinə yetirilməməsi ilə bağlıdır. Xüsusən də Zəngəzur dəhlizi məsələsi ətrafında problemlər yaradılır. Ona görə də zənnimcə, müxtəlif qüvvələr gərginliyin artırılması istiqamətində fəaliyyətlərini hələ də davam etdirəcək...

Təbii ki, insan itkilərimiz, şəhidlərimiz hamımızın ürəyini ağrıdır. Hərbçilərimizin şəhid olması və millətimizin verdiyi itkilər əvəzsiz qalmır. Ordumuzun rəşadəti sayəsində şəhidlərimizin qisası alınır və düşmənin hərbi infrastrukturu dağıdılması sülhə məcburetmə əməliyyatı istiqamətində fəaliyyət davam etdirilir. Yəni bütün mümkün vasitələrlə Ermənistanı sülh müqaviləsini imzalamağa məcbur etmək gərəkdir...

***- "Sülh müqaviləsinin imzalanmasına mane olan dövlətlər" deyəndə konkret hansıları nəzərdə tutursunuz?***

- Bu, bir dövlət deyil. Bu siyahıda bir neçə aparıcı dövlət var; yəni Rusiya var, ABŞ var, Fransa var. Həmin dövlətlər Güney Qafqazda nüfuz dairəsi uğrunda mübarizə aparır. Qərb, bu halda ABŞ və Fransa Rusiyanın buradan sıxışdırıb çıxarmağa cəhd edir. Təbii ki, Rusiya isə əksinə, ABŞ və Fransanı bu bölgəyə buraxmamağa çalışır. Bunun nəticəsində də daim gərginlik yaranır və hər iki tərəf Ermənistandan bir alət kimi istifadə edir...

***- Onda belə çıxır ki, Zəngəzur dəhlizinin taleyi hələ ki, qaranlıq qalır?***

- Görünür, əgər Rusiya Ermənistanı Zəngəzur dəhlizini açmağa məcbur etməsə, problemlər hələ olacaq. Bu dəhlizin açılmasının əleyhinə həm də Avropadakı bir sıra qüvvələr mane olurlar. Eləcə də İran da buna əngəl törətməyə çalışır. Zəngəzur dəhlizinin 10 Noyabr bəyanatındakı şərtlərlə açılması Rusiyanın mənafelərinə uyğundur. Odur ki, bütün təzyiqlər Paşunyana qarşıdır. Hər iki tərəf ona təzyiq edir ki, onların mənafelərinə qulluq etsin. Əvvəl-axır biz Ermənistana təzyiqləri daha da artırmalıyıq ki, Zəngəzur dəhlizini açmağa da, Azərbaycanla sülh müqaviləsini də imzalamağa məcbur olsun...

***- Silahlı qarşıdurma davam edərsə, onsuz da Ukraynada uduzmaqda olan və Ermənistanda hərbi bazaya malik Rusiyanın bölgəyə "sülhməramlı" adı ilə əlavə yeni hərbi qüvvə göndərməsi mümkündürmü, yaxud bölgədəki "sülhməramlı" adlanan kontingentinin sayını artırması gözlənilirmi? Yəni Kreml heç olmasa, Güney Qafqazdakı mövqelərini möhkəmləndirmək baxımından bunları edə bilərmi?***

- Ermənistanla sərhəddə qarşıdurmanın davam edəcəyi gözlənilir. Hesab edirəm, bu saat Rusiyanın elə bir imkanı yoxdur ki, bölgəyə əlavə qüvvələr yeritsin. Ukraynada qüvvə çatışmazlığı açıq-aşkar göz qabağında olan bu dövlətin özünə əlavə qüvvə lazımdır. Rusiyanın resursları, demək olar ki, tükənmək üzrədir. Onların döyüş qabiliyyətli hərbi hissələri sıradan çıxarılıb. Yenilərini hazırlamaq isə xeyli vaxt aparacaq. Silah-sursatın da yenilənməsi yenə də vaxt tələb edir. Ona görə də Rusiyanın Qafqaza, o cümlədən Azərbaycan-Ermənistan sərhədinə əlavə silahlı qüvvə göndərmək imkanları çox məhduddur...

***- Bölgəyə KTMT qüvvələrinin göndərilməsi məsələsi də, çox güman ki, qüvvədən düşdü. Qazaxıstan və Qırğızıstan rəsmiləri öz qoşunlarının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsindən danışmağın yersiz olduğunu ifadə etdilər...***

- KTMT-nin Ermənistan-Azərbaycan sərhədindəki son gərginliklə bağlı iclasında Qazaxıstan da, Qırğızıstan da Ermənistanı itkilərə səbəb olmuş təxribat yaratdığına görə rəsmən ittiham etdi. Rusiya və Belarus isə bitərəf qalıblar. Yerində monitorinq keçirərək vəziyyətlə tanış olmaq üçün bölgəyə öz nümayəndələrindən ibarət missiya göndərməyi qərara alıblar. Bir sözlə, KTMT artıq ölü bir təşkilata çevrilib. Onun fəaliyyətsizliyi də göz qabağındadır. Ermənilərin də ona ümid etmək üçün əsası yoxdur... Bu gün Ermənistanda Rusiya əleyhinə aparılan kampaniya da ona köklənib ki, müttəfiqləri onları tək, köməksiz qoyub...

***- Sizcə, Ermənistan hakimiyyətinin xəyal etdiyi kimi, Fransa və ya ABŞ-ın, yaxud BMT-nin sözügedən hərbi əməliyyatlar zonasına "sülhməramlı" adlanacaq kontingent yollaması mümkün ola bilərmi?***

- Bunlar da mümkün deyil. Əvvəla, Rusiya və Ermənistan arasında sərhədlərinin "FSB"nin sərhəd qoşunları tərəfindən qorunması, ərazisində bazaların yerləşdirilməsi haqqında müqavilə var. Faktiki olaraq Ermənistan Rusiyanın protektoratındadır. Odur ki, həmin ölkənin ərazisinə başqa dövlət və ya təşkilatın qoşunlarının gəlməsinə Kreml heç vaxt imkan verməz. Bilavasitə BMT-nin qoşun yollaması üçün Təhlükəsizlik Şurasının qərarı olmalıdır. Təbii ki, Rusiya da orada veto qoymaqla bunun qarşısını alacaq. Fransanın isə o qədər də qeyrəti yoxdur ki, təkbaşına Rusiya ilə üzbəüz gəlsin və öz qoşununu Ermənistana göndərsin...

> *Fransanın o qədər qeyrəti yoxdur ki, təkbaşına Rusiya ilə üzbəüz gəlsin və öz qoşununu Ermənistana göndərsin*

> *Hərbçilərimizin şəhid olması və millətimizin verdiyi itkilər əvəzsiz qalmır*



***- Yəqin ki, ABŞ da belə bir addım atmaz...***

- Bəli, Amerika da onun kimi... Heç kəs Ermənistana görə gəlib Rusiya ilə müharibə etməyəcək...

***- Belə bir versiya var ki, Ermənistanın sərhəddə Azərbaycanla son toqquşmasını Rusiya rejimi körükləyib. Guya Kreml bununla Paşinyanın devrilməsinə, özünə daha yaxın Köçəryan, Sərkisyan düşüncəli revanşist siyasətçilərin hakimiyyətə gətirilməsinət nail olmaqla Ermənistanda, beləliklə Güney Qafqazda daha da möhkəmlənmək və Qərbin, xüsusən də ABŞ-ın buradakı varlığına son qoymağa çalışır...***

- Təbii ki, Ermənistan silahlı qüvvələrinin içərisində keçmiş prezidentlərin nüfuzu çoxdur. Onlar ordudakı proseslərə təsir edə bilirlər. Yəni son hadisələr göstərir ki, Paşinyan faktiki olaraq proseslərə nəzarət edə bilmir...

***- Yəni Ermənistanın son qanlı toqquşmalara səbəb olmuş təxribatlarının məhz Moskva tərəfindən təşkil edilməsi fikri ilə razısınız?***

- O da mümkündür... Çox versiyalar var... Əsas odur ki, ermənilərin içərisində bu revanşist əhval-ruhiyyəni qızışdıranlar var. Onlar da öz güclərini, resurslarını hesablaya bilmirlər. Ona görə də bu cür təxribata əl atıblar və nəticə də göz qabağındadır. Ermənistan tərəfdən çox böyük itkilər olub. Bu prosesi təkrar davam etdirməyə də ermənilərin nə imkanı, nə də gücü var...

***- Ümumiyyətlə, Ukraynada istədiyinə nail ola bilməyən Rusiya digər keçmiş müttəfiq respublikalarında, o cümlədən Azərbaycanda müəyyən vasitələrlə revanş götürməyə çalışa bilməz ki?***

- Xeyr, Rusiya Azərbaycanda necə revanş götürə bilər ki? Bu saat Rusiya Azərbaycanla ehtiyatlı olmağa çalışır. Həm də ona görə ki, Türkiyəni itirmək istəmir. Türkiyə hazırkı şəraitdə Rusiya üçün tərəfdaş kimi çox önəmli dövlətdir. Sanki Türkiyə Moskvanın dünyaya çıxışı üçün bir pəncərədir. Təbii ki, Kreml tərəfindən Azərbaycana qarşı hər hansı bir aqressiv hərəkət də Türkiyənin itirilməsinə gətirib çıxara bilər. Rusiya isə bunu etmək istəmir və etmək də iqtidarında da deyil. Ona görə də Azərbaycana qarşı Rusiyadan açıq-aşkar, aqressiv heç bir hərəkət gözlənilmir...

***- Belə düşüncələr var ki, Ukraynadan qaçan Rusiya buradakı "5-ci kalon"unu daha da fəallaşdıra bilər...***

- Bilirsiniz, "5-ci kalon" onsuz da həmişə var. Azərbaycanda Rusiyanın təsir imkanları böyükdür. Azərbaycan həmin imperiyanın keçmiş müstəmləkəsi kimi 200 ildən çox birbaşa Rusiyanın tərkibində olub. Ona görə də Moskvanın burada təsir imkanları həmişə var və daim mümkün qədər Azərbaycandakı proseslərə təsir göstərməyə çalışacaq.

Özünün müəyyən məqsədlərini həyata keçirmək, hansısa proseslərin qarşısını almaq üçün "5-ci kalon"dan istifadə edə bilər. Təbii ki, onlar təxribat da edə bilər, qarışıqlıq da sala bilərlər. Bir daha təkrar edirəm: Rusiyanın Azərbaycana qarşı birbaşa açıq-aşkar aqressiv davranışı bu gün mümkün deyil. Dediyim kimi, Türkiyənin itirilməsi təhlükəsi Kreml üçün çox böyük təhdiddir. Yəni Rusiya hakimiyyəti Türkiyəni itirmək istəmir, çünki ondan asılıdır...

***- Belə çıxır ki, Türkiyənin təsiri olan digər keçmiş müttəfiq respublikalarda da, xüsusən də Qazaxıstan və Orta Asiyanın türk, müsəlman ölkələrinə Rusiyanın o qədər də müdaxilə etmək imkanları qalmayıb...***

- Qazaxıstanda, Qırğızıstanda bəlkə də Rusiyanın təsir imkanları daha çoxdur. Həmin ölkələrdə Türkiyənin təsiri də get-gedə artır. Digər tərəfdən isə son hadisələr göstərdi ki, Azərbaycanın Qazaxıstan, Özbəkistan, Türkmənistanla və s. yaxınlaşması türk dövlətləri üçün çox böyük perspektivlər açır. Hamı da tədricən bunu anlamağa alışır, bunun əhəmiyyətini bilirlər. Bu istiqamətdə də işlər gedir. Təsadüfi deyil ki, qeyd etdiyimiz kimi, Qazaxıstan və Qırğızıstan son hadisələrlə bağlı açıq-aşkar Ermənistanın əleyhinə çıxış etdilər...

Sonda bir daha şəhid ailələrimizə başsağlığımı yetirirəm. O şəhid övladlarımız Vətən, dövlət, xalq üçün əvəzsiz xidmət göstəriblər. Onların qanı da yerdə qalmayıb və qalmayacaq da... Ən əsası odur ki, bu dövlətimiz məhz şəhidlərimizin, qazilərimizin sayəsində yaşayır...

***✍ Sultan Laçın***

# Azərbaycan növbəti anti-terror əməliyyatı keçirəcək?

***Sərhəddə baş verən son təxribatlarla bağlı millət vəkili Azər Badamov "Həftə içi"nə müsahibəsində maraqlı məqamlara toxunub.***



**Azər Badamov,**
millət vəkili

## Müsahib

***- Ermənistan ordusunun tör-töküntüləri sentyabrın 12-13-də Kəlbəcər, Laçın və digər ərazilərimiz istiqamətində genişmiqyaslı təxribatlar törədib. Bu təxribatların arxasında hansı hərbi-siyasi maraqlar dayana bilər?***

- Döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram. Erməni təxribatlarına gəlincə, burada bir neçə məqsəd dayanır. Birincisi, regionda gərginliyi artırmaq və sülh müqaviləsinin imzalanması ilə bağlı aparılmış danışıqları heçə endirmək. İkincisi, sərhəddə hərbi avantüraya əl atmaqla beynəlxalq ictimaiyyətin diqqətini öz yalanına inandırmasına cəhd edərək bu məsələyə beynəlxalq gücləri cəlb etmək.

Üçüncüsü, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq-bərpa işlərinə mane olmaq və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışını ləngitmək. Dördüncüsü, Zəngəzur dəhlizinin açılmasına maneçilik törətmək. Çox təəssüf ki, Ermənistan hələ də başa düşmür ki, imzaladığı sənədlərlə götürülmüş öhdəlikləri icra etməlidir və əgər bunu öz xoşları ilə etməzlərsə, Azərbaycanın kifayət qədər hərbi gücü var ki, buna güc yolu ilə məcbur etsin. Azərbaycan hələ də danışıqlara üstünlük verir. Ermənistan uzatdığımız sülh əlimizdən yapışmalı, qonşuluq münasibətlərinin formalaşmasına çalışmalıdır. Əks halda, məhv olunacaqlar və öz tarixi torpaqlarımızı da qaytara bilərik.

***- Ermənistanın intensiv xarakter daşıyan bu təxribatları sülh danışıqlarından yayınması məqsədi daşıyırmı?***

- Ermənistan danışıqlar masasında küncə sıxılmışdır və Brüsseldə sülh müqaviləsinin imzalanması üçün konkret öhdəlik götürmüşdür. Təbii ki, Ermənistanın son bir ayda intensiv təxribatlara əl atmaqla sülh müqaviləsinin imzalanmasını uzatmağa çalışır. Çox təəssüf, anlamır ki, sülh müqaviləsinin alternativi yoxdur. Əgər Ermənistan yenidən təxribatlara əl atarsa, Azərbaycan imzaladığı razılaşmadan çıxa və öz ərazisini erməni hərbi tör-töküntülərdən qısa zaman kəsiyində təmizləmə əməliyyatına başlaya bilər.

***- Paşinyan 44 günlük Vətən müharibəsində olduğu kimi, yenə də Makrona, Putinə və ABŞ rəsmilərinə və dünyanın bir sıra ölkələrinə yalvarış xarakterli telefon zəngləri edib. Bu adam qorxursa, çəkinirsə. niyə təxribatlara bu dərəcədə meyil göstərir?***

- Ermənistan müstəqil ölkə deyil və havadarlarının dəstəyi ilə təxribatlar törədir. Yəni, Cənubi Qafqaz beynəlxalq güclərin maraqların toqquşduğu regiondur və onlar regionda sülhün yaranmasını arzulamırlar. Ona görə də cəhənnəmdə yanıb külə dönmüş Minsk qrupuna yenidən can verməyə çalışır, ermənilərə dayaq dayanaraq qızışdırırlar. Sonra da özləri kənarda dayanıb gərginliyi seyr edirlər. Törətdikləri təxribat hərəkətləri ağır nəticələrə məruz qalanda Paşinyan yenidən öz havadarlarına yalvarmağa başlayır ki, Azərbaycanı atəşkəsə dəvət etsin. Paşinyan havadarlardan dəstək alanda elə bilir ki, arxasında böyük güc dayanıb və nəyəsə nail ola bilər. Amma başa düşmür ki, Azərbaycanın Müzəffər Ordusunun qarşısında heç vaxt dayana bilməz və ölkəsinin təhlükəsizliyinin təmin edilməsi suveren haqqıdır.

> *Ermənistan müstəqil ölkə deyil və havadarlarının dəstəyi ilə təxribatlar törədir*



***- Davamlı xarakter daşıyan erməni təxribatları nəticə etibarilə Azərbaycanı qisas əməliyyatlarını genişləndirməyə vadar edə bilərmi?***

- Azərbaycanın başqa ölkənin ərazisində heç vaxt gözü olmayıb. Eyni zamanda, öz ərazisinin bir qarışını belə kiməsə zəbt etməyə imkan verməyəcəkdir. Əsas hərbi əməliyyatımızı iki il əvvəl 44 gündə apardıq və torpaqlarımızı düşmən tapdağından azad etdik. Sonra da qisas əməliyyatı keçirməklə düşməni ağıllı olmağına mesaj verdik. Görünür, düşmən bundan hələ də nəticə çıxarmayıb və bir aydır, intensiv əməliyyatlara əl atmışdır. Təbii ki, düşmənin hər bir təxribatının qarşısı çox ciddi şəkildə alınır və onlar ağır itkilərə məruz qalaraq geri qaçmağa məcbur olurlar. Öz ərazisinin bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi Azərbaycanın suveren hüququdur. Hər bir ölkənin ərazi bütövlüyünün təmin edilməsi beynəlxalq hüquq normalarında da həkk olunmuşdur. Beynəlxalq hüququn verdiyi imkanlardan istifadə edərək Azərbaycanın Müzəffər Ordusu Qarabağda antiterror əməliyyatı keçirə və orada qalmış erməni hərbi tör-töküntülərini məhv edə bilər.

Azərbaycan son anda, yəni sözün işləmədiyi yerdə silah işlədir. Ona görə də hələ ki danışıqlar yolu ilə Ermənistanla sülh müqaviləsinin imzalanmasına üstünlük vermişdir. Əgər Ermənistanın təxribatları yenidən davam edərsə, bu, sözün gücünün bitdiyi nöqtəsi olacaq və Azərbaycan növbəti antiterror əməliyyatı keçirə bilər.

***✍ Sabir***

# Dünyaya inteqrasiya edən Azərbaycan iqtisadiyyatı

## Layihə



***Müstəqil Azərbaycan dövləti gənc olmasına baxmayaraq, istər regionda, istərsə də dünya miqyasında ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlarla çoxtərəfli əlaqələr qurmağa, beynəlxalq imicini ildən-ilə artırmağa nail olub. Azərbaycan məhz dünya birliyinə inteqrasiya, eyni zamanda beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsi və qarşılıqlı əməkdaşlığa əsaslanan inkişaf platformasının formalaşdırılmasının ölkədə həyata keçirilən siyasətin əsas məqsədlərindən biri olduğunu dəfələrlə, özü də bir neçə istiqamətdə təsdiqləyib.***

Xüsusilə qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatlar və dünya birliyi ilə qarşılıqlı əməkdaşlıq və inteqrasiya Azərbaycan üçün iqtisadi baxımdan da vacibdir. Qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsi, eləcə də Azərbaycanın mövcud potensialının daha böyük anlamda iqtisadi dəyərə çevrilməsi baxımından inteqrasiyanın əhəmiyyəti danılmazdır. İqtisadiyyatın liberallaşdırılması ilə bağlı islahatların dərinləşməsi və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsinin Azərbaycan iqtisadiyyatının inkişafına xüsusi təsirlərinin, daha dəqiq desək, töhfələrinin artırılmasına müsbət təsiri nəzərə alınır və bu baxımdan qarşılıqlı əməkdaşlıq nəticə etibarı ilə Azərbaycan iqtisadiyyatının inkişafı üçün yeni imkanlar hesab olunur. Praktik olaraq beynəlxalq platformalarda Azərbaycan daha fəal şəkildə iştirak etməklə həm ölkə iqtisadiyatının inkişafına, həm də regionda əməkdaşlıq və sülhün formalaşmasına xüsusi töhfə vermiş olur.

Azərbaycanın təşəbbüsü və müəllifliyi ilə reallaşan həm regional, həm də qlobal kontekstdə çoxsaylı layihələr var ki, bunlar Azərbaycanın əməkdaşlığa açıq olduğunu isbatlayır. Onu da qeyd etmək yerinə düşərdi ki, əksər hallarda Azərbaycan özü əməkdaşlıq üçün çox mühüm və ciddi platformalar yarada bilir. Məsələn, bir zamanlar Əsrin Müqaviləsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi layihələrə şübhə ilə yanaşılırdı və reallıqdan uzaq sayılırdı. Amma Azərbaycan bu istiqamətdə uğurlu və real nəticələr ortaya qoymaqla, bütün şübhələri ortadan qaldırdı.

İndi də bunlara bənzər və hətta daha qlobal əhəmiyyətə malik olan layihələrə şahidlik edirik. Bu yaxınlarda İtaliyada səfərdə olarkən "İl Sole 24 Ore" qəzetinə müsahibəsi zamanı Prezident İlham Əliyev "Bizim sözümüzün imzamız qədər qüvvəsi var" cümləsini əbəs yerə işlətməmişdi. Bu cümlənin ifadə etdiyi məna bütövlükdə Azərbaycanın xarici siyasətinin, beynəlxalq münasibətlərdəki mövqeyinin, əlaqələri olan hər bir dövlət və təşkilatla əməkdaşlığının məzmununu və qayəsini təşkil edir. Azərbaycanla münasibətlərdə obyektiv baxış prizmasından çıxış edən siyasi və iqtisadi dairələr də həmişə bunu xüsusi qiymətləndiriblər.

Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyasının əsasında dayanan ən önəmli faktorlardan biri ölkəmizin son illərdə həyata keçirdiyi beynəlxalq layihələr və bu layihələrin nəticəsi olaraq Şərqlə Qərbi birləşdirən tranzit ölkə rolunda çıxış etməsidir. Bakı-Tiflis-Qars dəmir yolunun açılması ilə Asiya ilə Avropanı ən optimal yükdaşıma marşrutu ilə təmin edən Azərbaycan getdikcə bu marşruta daha çox ölkənin diqqətini cəlb etməkdədir. Bunun əsas səbəbi isə həmin marşrutla yüklərin hər iki istiqamətə daşınmasının daha çevik və daha az maliyyə ilə həyata keçirilməsidir ki, bunda əsas udan tərəf rolunda elə Azərbaycan özü çıxış edir. Çünki daha çox yük daha çox gəlir deməkdir.

> “Ölkəmiz müstəqillik əldə etdikdən sonra dünya iqtisadiyyatına inteqrasiya istiqamətində çox mühüm addımlar atılıb



**Vüqar Bayramov,**
millət vəkili

Bundan başqa, ölkəmizin təşəbbüsü və bilavasitə vasitəçiliyi ilə TAP, TANAP kimi transmilli enerji marşrutları da var ki, həmin kəmərlər Azərbaycanı bir çox dövlətlərin maraq dairəsinə gətirib. Beləliklə də Azərbaycan dünya miqyasında özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Məsələn, bu gün Azərbaycan-Avropa İttifaqı münasibətləri müxtəlif sahələr üzrə sıx və etibarlı tərəfdaşlığa əsaslanır. Bunun ilk olaraq iqtisadi sferadakı rəqəmlərdən də görmək olar. Belə ki, Aİ 700-dən çox şirkət ilə ölkəmizdə ən böyük investordur. İnvestisiyaların həcmi isə on milyardlarla dolları ötür.

Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq isə ikitərəfli münasibətlərin nüvəsini təşkil edir. Azərbaycanın başlatdığı və Avropa İttifaqının dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edib. Artıq il yarımdır ki, "Cənub qaz dəhlizi" tam gücü ilə işləyir və Azərbaycanın Xəzərdən hasil etdiyi təbii qaz Avropa bazarlarına çatdırılır.

Azərbaycanla Aİ arasında enerji dialoqu yüksələn xətlə davam edir və bunun ən mühüm nümunələrindən biri bu il iyulun 18-də Bakıda "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasıdır. Bu anlaşma memorandumu enerji təhlükəsizliyi sahəsində Aİ-Azərbaycan əməkdaşlığının ən yüksək səviyyəyə çatmasının təcəssümüdür. Ümumiyyətlə, Azərbaycan özünün enerji siyasəti ilə bağlı nəyi planlaşdırıbsa, ona qətiyyətlə nail olub. Aİ ilə imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Əvvəlki bütün layihələrin reallaşdırıldığını nəzərə alsaq, deyə bilərik ki, enerji sahəsindəki əməkdaşlıqla bağlı yaxın gələcəkdə yeni uğurlara nail olunacaq.

Təbii ki, bütün bunlar Aİ-yə üzv olan ayrı-ayrı ölkələrlə də Azərbaycanın münasibətlərinin strateji mahiyyətini təmin edib. Ümumilikdə isə Aİ Avropanın aparıcı təşkilatı və inkişaf etmiş Avropa dövlətlərinin rəsmi birliyi olaraq Azərbaycanın münasibətlərdə etibarlı tərəfdaş olduğunu qəbul edir, eləcə də rəsmi Bakının müstəqil siyasətinə hörmətlə yanaşır. Bu baxımdan Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlarda da ölkəmizin beynəlxalq münasibətlərdəki mövqeyi və tərəfdaşlığa sadiqliyi mühüm rol oynayır. Azərbaycanın qətiyyətli siyasət yürütməsi, o cümlədən etibarlı tərəfdaş olması Aİ-nin ölkəmizin ədalətli mövqeyi barədə obyektiv yanaşma ortaya qoyması ilə şərtlənir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən millət vəkili Vüqar Bayramov da hesab edir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə dünya iqtisadiyyatına inteqrasiya istiqamətində çox mühüm addımlar atılıb:**

"Azərbaycanda həyata keçirilən siyasətin əsas məqsədlərindən biri də dünya birliyinə inteqrasiya, eyni zamanda beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsi və qarşılıqlı əməkdaşlığa əsaslanan inkişaf platformasi formalaşdırmaqdan ibarətdir. xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra dünya iqtisadiyyatına inteqrasiya istiqamətində çox mühüm addımlar atılıb. Beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş Azərbaycanın xarici iqtisadi əlaqələrinindaha da genişlənməsinə səbəb olub. Nəticədə ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib. Hazırda ölkədə mövcud siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirib. Bugünədək Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında çoxlu sayda saziş imzalanıb.

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı, eyni zamanda, investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb.Dünya iqtisadi sistemінə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici ölkələrlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edir, ölkənin dünyada nüfuzunu daha da artırır".

✍ Sevinc

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Ermənistan tərəfinin təxribatı nəticəsində şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu, 1997-ci il təvəllüdlü Vadim Qocayev və onun atası Alik Qocayev dəfn edilib. Hər iki şəxs Qobustan rayonunun Sündü kənd qəbiristanlığında torpağa tapşırılıb. Mərasimdə ictimaiyyət nümayəndələri, sadə vətəndaşlar iştirak ediblər. Xatırladaq ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu V.Qocayevin atası A.Qocayev ürəktutmadan dünyasını dəyişib.

■ 2022-ci ilin yanvar-avqust aylarında 17,5 milyon ədəd tibbi maska istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında qeyd olunub. Bildirilib ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən istehsalda 100 faiz artım olub. Hazırda maska ehtiyatımız 5,8 milyon ədəddir.

■ 2022-ci ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 14,1 faiz artaraq 831,3 manat təşkil edib. Əməkhaqqı neft-qaz sektorunda 3504,1 manat, qeyri neft-qaz sektorunda 780,2 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 782,9 manat, özəl müəssisələrdə isə 886,4 manat olub.



■ "Danışmaq və fikir bildirmək üçün asan gün deyil. Şəhidlərimiz var". Bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov deyib. Mütəxəssis Avropa Liqasının qrup mərhələsinin "Nant"la ev oyunu öncəsi mətbuat konfransına qatılıb. Qurbanov II turun sabah baş tutacaq matçı barədə fikirlərini açıqlayıb: "Sərhəddə döyüşlər gedir. Allah şəhidlərimizə rəhmət etsin. Allah onların ailələrinə səbir versin".

■ İsrailin müdafiə şirkətlərindən biri Polşa vasitəsilə Ukrayna ordusunu PUA əleyhinə vasitələrlə təmin edir. Bu barədə "Tayms of İsrail" nəşri yazıb. Nəşrin məlumatına görə, şirkət İsrail Müdafiə Nazirliyinə məlumat verib ki, satış Polşaya edilib və Varşavanın bu PUA-ların Ukraynaya ötürülməsində vasitəçi olduğunu bilməyib.



■ Bu ilin yanvar-avqust aylarında Azərbaycanda quş əti də daxil olmaqla diri çəkidə 364,2 min ton ət, 1457,6 min ton süd, 1323,3 milyon ədəd yumurta istehsal edilib. Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, 2021-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 2,9%, süd istehsalı 1,7%, yumurta istehsalı isə 4,2% artıb.

■ Ölkədə cari ilin yanvar-iyul aylarında 37 183 ölüm halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi azalaraq 7,2-dən 6,4-ə düşüb.



# Xəstəxanalarda onlayn növbə nə vaxt yaradılacaq?

**Bir neçə gün bundan əvvəl Abşeron Rayon Mərkəzi Xəstəxanasında yeni tədris ili ilə bağlı uşaqlara arayış üçün gələn valideyn izdihamında dava düşüb.**

Növbə üstündə düşən mübahisə sosial şəbəkələrdə yayılıb. Baş vermiş hadisə tibb müəssisələrində elektron növbə məsələsini yenidən aktuallaşdırıb. Məsələ ilə bağlı TƏBİB-in İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili şöbəsinin müdiri Zamirə Ədilova hafta.az-a açıqlamasında bildirib ki, mövcud vəziyyətdən onlar da məlumatlıdırlar: "Bu, sistemin hazırlanması uzun müddət tələb edən bir prosesdir. Bu istiqamətdə, artıq işlərə başlanılıb. Proses bir çox tibb müəssisəsini əhatə edəcək. Hazırda Kliniki Tibbi Mərkəzdə elektron sistem uğurla qurulub. Digər xəstəxanalarda da elektron lövhələrin quraşdırılması, elektron növbə sisteminə keçid həyata keçirilməkdədir".

✍ Sevinc

# Şərqi Zəngəzurda bərpa işləri davam edəcək

***Sentyabrın 12-də Ermənistanın sərhəddə törətdiyi təxribatların əsas hədəflərindən biri heç şübhəsiz Azərbaycanın Kəlbəcər, Laçın, Zəngilan kimi sərhəd ərazilərdə apardığı sürətli bərpa işləridir. İrəvan bərpa işlərinin qısa zamanda yekunlaşıb azərbaycanlıların öz doğma ərazilərində sürətli şəkildə məskunlaşdırılmasından ciddi şəkildə narahatdır. Bəs bu təxribatlar aparılan işlərə hansı təsir göstərəcək:***



"Ermənistan təxribatının məqsədlərindən biri də məhz Qarabağ, eləcə də Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma prosesinə hər hansı bir formada təsir etmək olsa belə, Azərbaycan işğaldan azad olunmuş ərazilərimizin yenidənqurulmasını davam etdirəcək. Azərbaycan Ordusu ölkəmizin təhlükəsizliyini qorumaq və bütün bu kimi təxribatlara cavab vermək qüdrətindədir. Bu baxımdan, təbii ki, Qarabağda, eləcə də Şərqi Zəngəzurda həyata keçirilən iqtisadi layihələr davam etdiriləcək". Bunu hafta.az-a açıqlamasında millət vəkili, iqtisadçı Vüqar Bayramov bildirib.

Deputat daha sonra vurğulayıb ki, Azərbaycan intensiv şəkildə Qarabağ və Şərqi Zəngəzuru yenidən qurmaqda davam edir: "Azərbaycan Ordusu tərəfindən həmin ərazilərimizin təhlükəsizliyi qorunur. Buna görə də bu ərazilərdə hansısa layihənin dayanması, bərpa işlərində hər hansı yubanmaların olacağı gözlənilmir. Praktik olaraq Azərbaycan intensiv şəkildə Qarabağ və Şərqi Zəngəzuru yenidən qurmaqda davam edir. Bu isə ondan xəbər verir ki, Azərbaycan Ordusu tərəfindən təhlükəsizliyin qorunması fonunda biz işğaldan azad olunmuş ərazilərimizdə bərpa, yenidənqurma, eləcə də məskunlaşma prosesinin davam edəcəyini müşahidə edəcəyik".

"Erməni təxribatlarının sərhəd zonasında həyata keçirilən iqtisadi layihələrə hansı təsiri olacağı hərbi əməliyyatların intensivliyindən və davamiyyətindən asılı olacaq. Məsələ bundan ibarətdir ki, hal-hazırda baş verən proseslər elə bir ərazilərdə gedir ki, orada bizim iri yaşayış kompleksləri olmadığına görə, sadəcə işlərin ləngiməsindən söhbət gedə bilər. Bu vəziyyət Ermənistanı bizdən daha çox narahat etməlidir. Ermənistanın həmin istiqamətdə yaşayış məntəqələri var". Bunu hafta.az-a açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib.

Ekspert bildirir ki, müharibənin aparılması hər iki ölkə üçün problemdir: "Yəqin ki, indiki əməliyyatlar əvvəlki kimi geniş miqyaslı olmayacaq. Ona görə də həyata keçirilən layihələrə ciddi problem yaranmayacağını düşünürəm".

✍ Sevinc

# Sərhəd təxribatına kənar baxış

***Məlum olduğu kimi, sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan ordusu yenidən Azərbaycan ərazilərinə qarşı hücuma keçməyə cəhd edib və bununla da 44 günlük Vətən müharibəsindən sonra yaranmış sabitliyi pozmağa çalışdı. Azərbaycan Ordusunun bölmələri düşmənə layiqli cavab verib. Düzdür, 50 şəhidimiz, yaralılarımız var. Ermənistan ordusu daha çox itki verib və qarşıdurma nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin bölmələri dövlət sərhədində mövqeyini daha da gücləndirməyə nail olublar.***



## Müzakirə

Bu gün istər Azərbaycanda, istərsə də dünyanın hər yerində insanları belə bir sual düşündürür: ikiillik sakitlikdən sonra nə baş verdi ki, bölgədə sabitlik yenidən pozuldu? Azərbaycana qarşı hərbi təxribat törətməkdə Ermənistan rəhbərliyinin məqsədi nədir? Yaxud, bu münaqişənin alovlanmasında üçüncü tərəflərin barmağı ola bilərmi?

Bu yerdə qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın təxribat baş verən saatlarda Rusiya Prezidenti Vladimir Putinə zəng vuraraq təcili hərbi dəstək tələb etməsi, üstəlik, paralel olaraq Fransa prezidentinə telefon açması, hətta Putinlə söhbəti zamanı BMT TŞ-ya müraciət sənədinin hazır olduğunu deməsi bəzi şübhələri ortaya çıxarır. Hansı şübhələri? Ermənistan bu ssenarini çoxdan hazırlayıb və hətta hadisə baş verdiyi təqdirdə atmalı olacağı addımları da müəyyənləşdirib. O cümlədən, hazırlanması o qədər də tez başa gəlməyən, BMT-yə müraciət sənədi də tərtib edilib.

Ermənistan rəhbərliyi törətdiyi təxribatla yanaşı, siyasi davranışında yol verdiyi çatışmazlıqlarla sübut etdi ki, onlar bölgədə sabitliyə və sülhə hazır deyillər və ya ümumiyyətlə, bunu istəmirlər. Ermənilərin xam xəyalları hələ də Qarabağ iştahası ilə göylərdə uçur. Onlar hələ də ənənəvi müttəfiqlərinə bel bağlayaraq tarixi iddialarını müasir günümüzdə Azərbaycana qarşı reallaşdırmaq istəyirlər. Göründüyü kimi, Rusiyanın bu məsələdə tərəfsiz kimi davranması, İranın isə Ermənistanın ərazi bütövlüyünü dəstəkləməsi barədə bəyanat verməsi bəzi qaranlıqlara işıq salır: baş verənlərin məqsədi Zəngəzur dəhlizi layihəsinin reallaşmasına maneçilik törətmək və Türkiyə ilə Azərbaycanın timsalında türk ölkələrinin bütünləşmənin qarşısını almaq. Təbii ki, ssenarinin müəllifləri Rusiyanın özü, İran, Fransa, ABŞ və digər Qərb qütbüdür.

■ **Türkiyədən beynəlxalq münasibətlər üzrə mütəxəssis, doktor Furkan Kaya deyib ki, Ermənistan ordusunun törətdiyi silahlı təxribatın arxasında mütləq İranın barmağı var.** O, Türkiyəni əhatə edən coğrafiyanın alov halqasına bənzədiyinə diqqət çəkərək deyib ki, problemin kökündə duran amil yekun sülh sazişinin imzalanmamasıdır: "Zəngəzur dəhlizinin yaradılması layihəsi ortaya çıxdıqdan sonra, xüsusilə də bu müharibədə İran Ermənistanı dəstəkləyərək öz maraqlarını qorumağa çalışdı. Fikir verin: silahlı qarşıdurma yaşanan yerlər məhz Zəngəzur dəhlizinin keçəcəyi bölgələrdir. Bura həm də Türkiyə ilə Azərbaycanın birləşdiyi xüsusi mövqeli ərazilərdir. Ermənilər ictimai fikri Zəngəzur dəhlizi layihəsindən uzaqlaşdırmağa çalışırlar və bu cür hallar vaxtaşırı yenə olacaq" deyən cənab F.Kayanın sözlərinə görə, Paşinyan SOROS və ABŞ-ın birbaşa dəstəyi ilə hakimiyyətə gəlsə də, sonradan mövqeyini dəyişdirməklə etibarsızlaşıb. "Paşinyan mövqeyini dəyişərək Putinin sırasına keçib. İqtidarı əldən-ələ dəyişdirilən Ermənistandan hazırda Türk dünyasının birləşməsinə mane olmaq üçün alət olaraq istifadə edilir", - türkiyəli ekspert bildirib.

■ **Türkiyəli hərbi ekspert Kutay Karacanın fikrincə, Ermənistan düşdüyü iqtisadi böhrandan çıxmaq, xaricdəki erməni diasporunun nəzarətindən qurtulmaq və iqtisadi-sosial müstəvidə inkişafını sürətləndirmək istəyirsə, Azərbaycanla sülh sazişi bağlamalı, sərhəd problemlərini həll etməlidir.** O əlavə edib ki, Ermənistanın gələcəyi Azərbaycan və Türkiyə ilə yaxşı qonşuluq münasibətlərinin var olmasından çox asılıdır. Bunun üçün ilk növbədə, Ermənistanın daxilindəki Azərbaycanla əlaqələrin düzəlməsinə qarşı çıxan qrupların zərərsizləşdirilməsi lazımdır.

■ **Rusiyalı politoloq Yevgeni Mixaylovun sözlərinə görə, Ermənistanın bu dəfəki təxribatının Şanxay Əməkdaşlıq Təşkilatı liderlərinin Səmərqənd görüşünə bir neçə gün qalmış baş verməsi heç də təsadüfi deyil.**

Ermənistan bu addımı ilə Rusiyanın mövqeyini zəiflətməyə çalışır. Onun sözlərinə görə, bu gün İrəvan üçüncü qüvvələrin, xüsusilə də Avropa İttifaqının və ABŞ-ın əlində oyuncağa çevrilib.

"Ermənilər bu yolla sərhədlərin delimitasiyasına və Zəngəzur dəhlizi kimi regional layihələrin gerçəkləşməsnə mane olmağa çalışırlar. İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını bu məsələyə cəlb etməyə çalışır, amma bu cəhdləri baş tutmayacaq. Son illər ərzində KTMT-də anlayırlar ki, Ermənistan dəqiq planlar əsasında siyasi-hərbi təxribatlar törədərək sülhün yaranmasına açıq-aşkar mane olur", - Y.Mixaylov deyib.

■ **Londonda fəaliyyət göstərən "Chatham House" analitik mərkəzinin Rusiya və Ermənistan üzrə eksperti Lorens Broersin sözlərinə görə, Azərbaycan bu münaqişədə öz hərbi üstünlüyündən istifadə edərək sərhədlərini tam bərpa etməyə çalışır.**

"Azərbaycan və Ermənistan hərtərəfli sülh anlayışının necə olması ilə bağlı ciddi fikir ayrılıqları yaşayırlar. Bakı Dağlıq Qarabağı öz ərazisi hesab etdiyi halda, İrəvan orada rol oynamaq arzusundadır. Ermənistan hakimiyyəti bölgədə yaşayan ermənilərin hüquqlarını qorumağa söz verir. İki ölkə arasında tamhüquqlu münaqişə regionda Rusiya və Türkiyə kimi böyük dövlətləri cəlb etmək, təbii qaz və neft kəmərləri üçün mühüm dəhliz olan Qafqazda qeyri-sabitlik yaratmaq riski daşıyır", - deyən ekspertin fikrincə, Moskvanın Ermənistanla müdafiə ittifaqı var və bölgədə hərbi bazası mövcuddur. Ankara isə Azərbaycanı həm siyasi, həm də hərbi cəhətdən dəstəkləyir.

"Ermənistanla Azərbaycan arasında müharibənin təkrar alovlanması Moskvaya bölgədə sabitlik yaratmaq üçün daha çox sülhməramlıya ehtiyac yarada bilər", - deyən Broersin sözlərinə görə, hazırda sərhəd bölgəsində yeni bufer zona yaratmaq ideyası ortaya çıxıb. Yalnız bu yolla tərəflər öz təhlükəsizlikləri təmin etmiş olacaqlar.

■ **Başqa bir rusiyalı beynəlxalq məsələlər üzrə ekspert Andrey Petrovun sözlərinə görə, bu, İrəvan tərəfindən törədilən açıq-aşkar siyasi-hərbi təxribatdır. Ermənilər bununla Brüssel razılaşmasını pozmağa çalışırlar.** Onun fikrincə, başqa bir məqam da odur ki, hadisə baş verən kimi, Paşinyan Putinlə telefonda danışıb və KTMT-nin iclasını çağırmağı tələb edib, eyni zamanda BMT-yə müraciət sənədi hazırladığını deyib.

"Məlumdur ki, hətta fövqəladə hallarda da müraciət sənədini hazırlamaq bir neçə gün vaxt aparır. Deməli, onlar təxribatdan öncə hər şeyi düşünərək hazırlıqlarını görüblər. Şübhəsiz ki, KTMT İrəvanın müraciətinə sadəcə sülh çağırışları ilə cavab verəcək. Ermənistan hazırda KTMT-dən uzaqlaşma prosesinə başlayıb, çünki onlar bu təşkilatdan öz məqsədləri naminə istədiklərini ala bilmirlər.

Çox güman ki, ermənilər Ermənistanda Rusiyanı NATO ilə əvəz etməyə çalışırlar. Axı Paşinyan Vaşinqtonda Pentaqon rəsmiləri ilə görüşdə bütün bunları edəcəklərinə dair söz verib", - rusiyalı politoloq vurğulayıb.

■ **Gürcüstanlı siyasi ekspert Tengiz Txilava isə təəssüflə deyir ki, ermənilərin iddiaları nə ilkdir, nə də son. Amma onlar gec-tez anlamalıdırlar ki, Qarabağ Azərbaycan ərazisidir".**

O qeyd edib ki, artıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olması faktı bütün dünyada öz təsdiqini tapıb. "Qarabağ problemi iki ildir ki, aradan qaldırılıb. Ermənilər öz təcavüzkar siyasətlərindən əl çəkmək istəmirlər. Bu cür toqquşmalar regionun inkişafına mane olur. Hazırda Paşinyan qeyri-ciddi bəyanatlar verir. Hansı ki, regionda çox böyük layihələr icra olunmaqdadır. Ermənistanın da bu layihələrdə iştirakı yaxşı olardı. Təəssüf ki, onlar hər vəchlə layihələrin reallaşmasına mane olmağa çalışırlar", - gürcüstanlı politoloq deyib.

*✍ Vüsal Tağıbəyli*

“

*Ermənistan ordusunun törətdiyi silahlı təxribatın arxasında mütləq İranın barmağı var*

*Ermənistanın gələcəyi Azərbaycan və Türkiyə ilə yaxşı qonşuluq münasibətlərinin var olmasından çox asılıdır*

*Bu gün İrəvan üçüncü qüvvələrin, xüsusilə də Avropa İttifaqının və ABŞ-ın əlində oyuncağa çevrilib*

*Hazırda sərhəd bölgəsində yeni bufer zona yaratmaq ideyası ortaya çıxıb*

*Onlar təxribatdan öncə hər şeyi düşünərək hazırlıqlarını görüblər*

*Ermənilər gec-tez anlamalıdırlar ki, Qarabağ Azərbaycan ərazisidir*

### Mövlud Çavuşoğlu, Türkiyənin xarici işlər naziri:



- Bölgədə vəziyyət həssasdır. Azərbaycan Ermənistana sülh sazişi təklif etsə də, onlar uzun müddət buna cavab vermədi. Ermənistan ara-sıra təxribatlara əl atır. Əlbəttə, Azərbaycanın buna qarşılıq verməməsi mümkün deyil. Şəhidlərə Allahdan rəhmət diləyirik, Azərbaycan xalqına başsağlığı veririk. Davamlı sülh istəyiriksə, Ermənistan təxribatlardan əl çəkməlidir.

### Muxtar Tleuberdi, Qazaxıstan xarici işlər naziri:



- Qazaxıstan sülhməramlılarının Azərbaycan-Ermənistan sərhədinə göndərilməsi məsələsi gündəlikdə yoxdur.

İlk addım Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya komissiyasının işinin bərpa edilməsidir. Biz quru sərhədlərimizi və dəniz sərhədlərimizi tam demarkasiya etdiyimiz üçün öz təcrübəmizi tərəflərlə bölüşə bilərik. Demarkasiya Rusiya istisna olmaqla, bütün qonşularımızla yekunlaşıb. Rusiya ilə demarkasiya yəqin ki, daha 2-3 il vaxt aparacaq.

### Denis Qonçar, Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi:



- Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesi ilkin mərhələdə olduğundan bizim vəzifəmiz işin maksimum səmərəliliyini təmin etmək üçün bütün lazımi şəraiti yaratmaq, sərhəd zonasında sabitlik və təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə yardım etmək, bu fəaliyyətə kənardan müdaxilə etmədən, hər iki tərəf üçün çox həssas olan sərhəd məsələlərində siyasiləşməyə və kəskinləşməyə yol verməməkdir. Təəssüf ki, bu, kəsintisiz olmur. Sentyabrın 13-nə keçən gecə Ermənistan-Azərbaycan sərhədində vəziyyət kəskin şəkildə gərginləşib. Rusiya Xarici İşlər Nazirliyi tərəfləri vəziyyəti daha da gərginləşmədən çəkinməyə, təmkinli olmağa və atəşkəs rejiminə ciddi riayət etməyə çağırıb. Avropa İttifaqı Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmağı qarşılarına məqsəd qoyduqlarını belə gizlətmir. Brüsselin Moskvanın Bakı və İrəvanla üçtərəfli işinə müdaxilə cəhdləri Qərbin Rusiyaya qarşı başlatdığı sanksiya kampaniyası və ATƏT-in Minsk Qrupu vasitəsilə birgə işi dayandırması fonunda baş verir. Bunlar bizim oynamadığımız sıfır nəticəli geosiyasi oyunlardır. Biz hər gün əməli işlərlə məşğul oluruq ki, bu da liderlərimiz və xarici işlər nazirləri arasında birbaşa təmaslara, ölkələrimizin tarixi yaxınlığına, maraqların bir-birinə qarışmasına əsaslanır və ümumi regionumuzda daha təhlükəsiz və firavan gələcəyin qurulmasına istiqamətlənir.

### Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti:



- Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsinə səbəb Ermənistan ordusunun diversiya fəaliyyətidir. Ermənistan ordusu Laçın, Kəlbəcər və digər ərazilərdə diversiya fəaliyyəti göstərib. Azərbaycan Ordusu Ermənistanın təxribatçı fəaliyyətinə lazımi adekvat cavab verib. Ermənistan son iki ilə yaxın dövr ərzində, yəni 10 Noyabr bəyanatından sonra üzərinə götürdüyü öhdəliklərin bir qismini həyata keçirməyib. Bu günə qədər Qarabağda yerləşən erməni hərbi birləşmələri mövcudluğunu davam etdirir. Həmin üçtərəfli bəyanata uyğun olaraq Ermənistan kommunikasiyaların açılması məsələsini həyata keçirməyib. İki ölkə arasında aparılan sülh danışıqlarında Ermənistan müxtəlif bəhanələrlə sülh prosesinin ləngiməsinə səbəb olan addımlar atır. Azərbaycan Ermənistanı sülh müqaviləsi imzalamağa təşviq edir və sülh müqaviləsinin qarşılıqlı olaraq ərazi bütövlüyünün tanınması prinsipinə əsaslanmasına çalışır.

Ermənistan buna da adekvat cavab vermir. Eləcə də Azərbaycan sərhədlərin delimitasiyası ilə bağlı dəfələrlə təkliflərlə çıxış etsə də, bu məsələdə Ermənistan pozucu, qeyri-konstruktiv mövqe nümayiş etdirir. Bir sözlə, Ermənistan Azərbaycan konstruktiv mövqe nümayiş etdirdiyi bütün məsələlərdə sülh prosesinin əsas istiqamətləri üzrə qeyri-adekvat mövqe nümayiş etdirir ki, bu da davamlı olaraq Azərbaycanla Ermənistan arasında vəziyyətin gərginləşməsinə səbəb olur. Bölgədə, ümumiyyətlə, Cənubi Qafqazda davamlı sülhə nail olmağın yeganə yolu hər iki ölkə arasında ciddi problemlərin həllinə nail olmaqdır. Məsələlər həll edilmədən gərginlik artacaq. Burada da əsas məsuliyyət Ermənistan hakimiyyətinin üzərindədir. Ona görə də Azərbaycan Ermənistanın sərhəddə törətdiyi təxribatlara cavab verməli olur. Bizim prinsipial mövqeyimiz dəyişməzdir. Bu mövqe ondan ibarətdir ki, nəhayət, bölgədə davamlı sülh olsun. Bunun da yolu hər iki ölkə arasında normal münasibətlərin qurulmasından keçir.

### Tahir Rzayev, millət vəkili:



Ermənistan silahlı birləşmələrinin son günlərdə sərhədlərimizdə törətdikləri təxribatlar - ərazilərimizə hücumlar, əsgərlərimizin şəhid olmaları, atəşkəsin müntəzəm olaraq pozulması 10 noyabr və 9 yanvar tarixlərində Azərbaycan - Rusiya - Ermənistan dövlət başçılarının imzaladıqları bəyanatların, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşlərin ruhuna ziddir. Bu, beynəlxalq hüquq normalarının ciddi qaydada pozulmasıdır.

Sülh müqaviləsinin imzalanmasına, sərhədlərin müəyyənləşdirilməsinə, Şərqi Zəngəzur dəhlizinin açılmasına səylər göstəlildiyi bir vaxtda, belə təxribatların törədilməsi və insan itkisi ilə nəticələnməsi Ermənistanın öz təcavüzkar əməllərindən əl çəkmədiyi, müharibəyə və münaqişəyə önəm verdiyini göstərir. Bu yol Azərbaycandan çox Ermənistan üçün təhlükəlidir. Erməni xalqı yaşamaq istəyirsə sülhə gəlməli, təcavüzkarlığa son qoymalıdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev, Şanlı Ordumuz, xalqımız 44 günlük müharibədə öz sözünü dedi, nəyə qadir olduğumuzu dünyaya göstərdik. Ermənistanın hərbi-siyasi hakimiyyəti qarşımızda baş əydi, yalvardı. Təcavüzkar ordu məhv edildi, erməni əsgər və zabitləri diz çökdülər. Belə olan halda - Ermənistan iqtisadi-siyasi böhran içərisində olduğu, qarşıdurmalar səngimədiyi, hərc-mərcliyin baş alıb getdiyi bir vaxtda Ermənistanın yenidən müharibəyə əl atması, sərhədlərimizdə təxribatlar törətməsi onun məhvinə səbəb olacaqdır. Azərbaycan Ordusu qüdrətlidir, əsgər və zabitlərimiz cəsarətlidir, vətənpərvərdirlər. Xalqımız yekdildir, birdir. Hər birimizə yaxşı məlumdur ki, Ermənistan tərəfindən törədilən bu təxribatlar ilk növbədə sülh müqaviləsinin pozulmasına vaxtın uzadılmasına hesablanmışdır. Təxribatlar zamanı kütləvi tələfat verən Ermənistan anlamalıdır ki, müharibə onlar üçün ölüm, sülh isə yaşamaq şansıdır. Erməni xalqı yaşamaq istəyirsə sülhə gəlməli, təcavüzkarlığına son qoymalıdır.

### Gürcüstan Xarici İşlər Nazirliyi:



- Biz Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında hərbi eskalasiyanı və bunun nəticəsində yaranmış münaqişə vəziyyətini böyük narahatlıqla izləyirik.

Qarşıdurmalar zamanı zamanı ölən və yaralananların olması barədə məlumatlar var. Tərəflərin danışıqlar masasına gətirilməsi və (vəziyyətin) daha da gərginləşməsinin qarşısının alması təmin edilməlidir. Qarşıdurmaların istənilən yüksəlişi bütövlükdə regionun təhlükəsizliyinə nəzərə çarpan dərəcədə mənfi təsir göstərəcək. Bu baxımdan gərginliyin aradan qaldırılması və dialoqun bərpası üçün beynəlxalq ictimaiyyətin birgə səyləri xüsusi əhəmiyyət kəsb edir. Gürcüstan münaqişə tərəfləri arasında dialoqa ev sahibliyi etməklə regionda sülh və sabitliyin bərpası prosesində fəal iştirak etməyə sadiqdir", - deyə Nazirliyin açıqlamasında bildirilib.

### İrakli Qaribaşvili, Gürcüstanın Baş naziri:



- Biz qonşuluğumuzda cərəyan edən hadisələri böyük narahatlıqla izləyirik. Bunu Almaniyada səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Almaniya Kansleri Olaf Şoltsla birgə mətbuat konfransında deyib. O, Azərbaycan və Ermənistanın Gürcüstan üçün dost ölkələr olduğunu deyib və tərəflərin tezliklə dialoqa qayıdacağına ümidvar olduğunu bildirib. Qaribaşvili baş verənlərin regionda təhlükəsizlik mühitini daha da pisləşdirə biləcəyini, bu baxımdan hamının narahatlığına səbəb olmalı olduğunu qeyd edib.

Baş nazir özünün şəxsən vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında saxlanılan ermənilərlə minlanmış ərazilərin xəritələrinin mübadiləsinə dair razılıq əldə edildiyini xatırladıb və tərəflərin tezliklə danışıqlar masasına əyləşərək münaqişəyə son qoyacağına ümidvar olduğunu bildirib.

# Ermənistan dinc sakinləri atəşə tutdu

***Ermənistanın hərbi hissələri Kəlbəcər, Laçın, Daşkəsən, Zəngilan sərhəd ərazilərindən Azərbaycanın hərbi və mülki şəxslərini atəşə tutmaqda davam edir. İki mülki şəxsimiz Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən açılan atəş nəticəsində yaralanıb. Bunlar Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan - Goranboy rayonunun Veyisli kəndində yaşayan Kəlbəcər rayonu Bozlu kənd sakini 1975-ci il təvəllüdlü Musayev Asim İsa oğlu və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan - Kəlbəcər rayonu Ağdaban kənd sakini 1984-cü il təvəllüdlü Orucov Arzuman İman oğludur. “Ermənistan axşam saat 11 radələrində təxribata əl atdı, atışma başladı. Gecə saat 3 radələrində yaxınlığımıza top mərmisi atıldı. Bunun ardınca atılan ikinci mərmi lap yaxınımıza düşdü, xoşbəxtlikdən partlamadı. Tez yerə uzandıq. Üçüncü mərmi isə yaxınlığımızda partladı”.***



## Təxribat

Bunu Ermənistanın təxribatı nəticəsində Kəlbəcər rayonunun Dəmirçidam kəndində yaralanan mülki şəxs Arzuman Orucov deyib.

Mərmi partlayışından sonra A. Orucov topuğundan qəlpə yarası alıb: “Baxdım ki, digər yoldaşım çığırır. Tez yanına qaçdım, gördüm ki, ayağından qan axır. Bir kəndir tapıb, tez ayağını bağladım. Qanı dayandıra bildim. Sonra aidiyyəti yerlərə zəng vurdum. Təcili gəlib hospitala çatdırdılar”. A. Orucov həmin şəxsin hazırda Gəncədə müalicə olunduğunu bildirib: “Mənim də ayağımı sarıdılar. Xəstəxanaya yerləşdirmək istəyirdilər, razılaşmadım. Hazırda ayağımı yerə basa bilmirəm. Lazımı tibbi dəstək göstərilir. Dünən ayağımın sarğısını dəyişiblər, bu gün də dəyişəcəklər”. May ayından Kəlbəcərdə heyvandarlıq fəaliyyəti ilə məşğul olduqlarını qeyd edən A. Orucov Ermənistanın təxribatı nəticəsində təsərrüfatlarına da ciddi ziyan dəydiyini bildirib.

Qeyd edək ki, sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatı nəticəsində Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veyisli kəndində yaşayan, Kəlbəcər rayonu Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Musayev Asim İsa oğlu və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan, Kəlbəcər rayonu Ağdaban kənd sakini 1984-cü il təvəllüdlü Orucov Arzuman İman oğlu yaralanıblar. Hazırda A. Musayev Gəncə şəhəri A. Səhhət adına 1 nömrəli xəstəxanada müalicə alır, onun vəziyyəti orta-ağır qiymətləndirilir. A. Orucova isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

■ **Hüquq müdafiəçisi Çingiz Qənizadə hafta.az-a açıqlamasında bildirib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdən bu günə qədər heç bir beynəlxalq hüquq normalarına əməl etmir.** Onun sözlərinə görə, kimlərsə işğalçıya dəstək verdikcə, o, daha da quduzlaşır, daha da iştahı artır.

“Məhz həmin dəstəyin nəticəsidir ki, Ermənistan son 30 ildə torpaqlarımızı işğalda saxlaya bildi. Çox təəssüf ki, beynəlxalq hüququ yazan dövlətlər işğalçı ilə işğala məruz qalan arasında hər hansı fərq qoymadılar. Ona görə də 2020-ci ildə torpaqlarımızı öz gücümüzə gücümüzə azad etdik. Beynəlxalq hüquqla tanınan Azərbaycan torpaqlarından işğalçını qovduğumuz zaman da bizə qarşı təzyiqlər oldu, “Müharibəni dayandır” çağırışları edildi. Çox təəssüflər, bu gün beynəlxalq hüquq bəzi dövlətlərin alətinə çevrilib”. Ç.Qənizadə bildirir ki, sentyabr ayının 12-dən 13-nə keçən gecə erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazisinə göndərilən təxribatçı qruplar Azərbaycan Ordusu və istehkamları arasındakı ərazilərin, təminat yollarının minalanmasına cəhdlər edib.

Hüquqşünas düşmənin layiqli cavab aldığını önə çəkib. Hüquq müdafiəçi bildirir ki, revanşist iddialarından əl çəkməyən erməni hərbçiləri Azərbaycan hərbi hissələrinin yerləşdiyi ərazilərə minaatanlardan atəş açmaqla tək hərbçiləri qarşı deyil, bu əraziyə köçürülmüş mülki əhalimizin, kənd təsərrüfatı ilə məşğul olan insanlarımızın, eyni zamanda, yenidənqurma infrastrukturunda çalışan mülki əhalimizin həyatının da təhlükə altına atdığını önə çəkib.

“Mülki əhali arasında xeyli yaralananlarımız var. Təsərrüfatlara, hərbi obyektlərə zərər dəyib. Bunun nəticəsində Azərbaycan Ordusu haqlı olaraq sərhədboyu yerləşmiş erməni hərbi bölmələrinə və sərhəd istiqamətində yerləşdirilmiş hücum təyinatlı texnikalarına zərbələr endirib. Beynəlxalq hüquq deyir ki, əhalinin zəif təbəqəsi olan uşaqlara, qadınlara, qocalara, mülki şəxslərə qarşı güc tətbiq etmək qadağandır. Lakin ermənilər beynəlxalq hüququ saymır. Ona görə də hələ I Qarabağ savaşında itkin düşmüş 4 minə yaxın vətəndaşımızın taleyindən xəbər yoxdur. Ermənistan həmin dövrdə əsir götürmüş və itkin düşmüş şəxslər barəsində hələ də heç bir məlumat vermir. Ermənilər öldürüb-basdırdıqları kütləvi məzarlıqların yerini də demək istəmirlər. Belə çirkin siyasətlə qonşu dövlətin ərazisində yaşayan insanlara qarşı milli, iqri, dini kin-küdurət zəminində yaşamağa davam edir. Çox təəssüflər olsun, dini, milli, irqi düşmənçilik törədən belə bir dövlətə qarşı beynəlxalq təşkilatlar susur. Onlara qarşı heç bir təsir, təzyiq metodundan istifadə etmirlər”. Ç.Qənizadə Ermənistanın illərdir davam edən bu mənfur siyasətinin indi də davam etdiyini bəyan edib. Bildirib ki, yenə də bəzi dövlətlərin, qurumların, təşkilatların rəhbərləri səviyyəsində xoşagəlməz və ədalətdən uzaq olan müəyyən çağırışların şahidiyik.

“Ermənistana deyən yoxdur ki, 10 Noyabr 2020-ci ildə imzaladığın sazişə əsasən öhdəliyin var, niyə yerinə yetirmirsən?! Sənin 21 yanvar, 26 noyabr 2021-ci il tarixli Moskva, Soçi anlaşman var, niyə yerinə yetirmirsən?! Sənin Avropa İttifaqında keçirilən 4 görüşdə üzərinə götürdüyün öhdəliklər var. Bundan sonra sülh sazişi üzərində işlədiyin bir dövrdə Azərbaycan üzərinə təxribatçı göndərib, əraziləri minalanmasını həyata keçirmək, mülki əhalinin olduğu istiqamətlərdə toplardan atəş açmaq siyasətini hara qədər davam etdirəcəksən? Heç şübhəsiz, Ermənistanı buna vadar edən, daxili, xarici qüvvələr var. Ermənistanın indiki siyasi hakimiyyəti sülh sazişini imzalamaqdan yayınaraq hansısa yollarla vaxtı uzatmağa çalışır. Avropa İttifaqı ilə görüşdə konkret müddət qoyulmuşdu ki, 1 ay müddətində Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində sülh mətninin üzərində iş aparılsın. Sentyabr ayında bu prosesin bitəcəyinin gözlənildiyi dövrdə ermənilər belə bir təxribata əl atdılar”.

> *Mülki əhali arasında xeyli yaralananlarımız var*

> *Bizim müharibəni sivil qaydada aparmağımıza dair prinsiplərimiz var*

Ç.Qənizadə ermənilərin bu təxribatlarının, artıq aylardır, illərdir davam etdiyini, Azərbaycanın mülki vətəndaşlarının xəsarətlər aldığını, şəhidlər verdiyini də qeyd edib. Hüquq müdafiəçisi bunu yolverilməz addım kimi qiymətləndirib.

“Azərbaycan tərəfi 13 sentyabr əks-əməliyyatla BMT-nin 51-ci maddəsinin tələblərinə uyğun hərəkət edib. Özünün suverenliyini, toxunuzmazlığını qorumaq üçün işğalçıya, revanşist qüvvələrə cavab verib. Biz Ermənistan ərazisinə keçməmişik, hər hansı əraziləri işğal etməmişik. Öz ərazilərimizdən ermənilərin sərhədboyu yerləşdirdiyi hərbi kontingentini, hərbi texnikanı məhv etmişik, çünki onlar Azərbaycan dövləti xüsusi təhlükə yaradırdı.

Sentyabrın 13-də saat 9-dan Rusiyanın xahişi ilə atəşkəs elan olunsa da, onlar dünən də, bu gün ərzində də təxribat xarakterli atəşlərini davam etdirirlər. Bu, belə davam edə bilməz. Ermənistan bu addımlarını dayandırmasa, bədəli daha ağır olacaqdır”.

■ **Hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a bildirib ki, Ermənistan dövlətinin, xalqının revanşist xisləti uzun illərdir bizə bəllidir və Azərbaycan dövləti və xalqı bunu öz həyatında görür.** Biz 44 günlük müharibədə Ermənistanın Bərdəyə, Tərtərə, Gəncəyə atdığı qadağan olunmuş raketlərlə yüzlərlə mülki vətəndaşlarımızın - uşaqların, qocaların, qadınların ölümünə səbəb olmalarını, mülki yaşayış sahələrimizin dağıdıldığını gördük.

Bu faktlar bu gün də meydanda durur. Görünən odur ki, Ermənistan müharibəni də xaincəsinə aparır və heç bir beynəlxalq hüquq normalarına əməl etmir”. Onun sözlərinə görə, bu gün də erməni hərbi hissələrinin Azərbaycanın sərhəd kəndlərində mülki əhalini atəşə tutması təsadüfi və yaxud gözlənilməz hal deyil.

“Biz Ermənistanı 30 illik işğal dövründə daha yaxşı tanıdıq. Biz erməni xislətinin nədən ibarət olduğunu bilirik. Ermənistan hər zaman müharibələrdə, döyüş bölgəsində uduzduğu zaman əllərindəki kartı mülki əhaliyə qarşı istifadə edən cinayətkardır. Bunun kifayət qədər nümunələri var. Xüsusən də hələ birinci Qarabağ savaşı dövründə Xocalıda, Ağdabanda soyqırımları törədən, mülki əhalimizi əsir götürən, onlara işgəncələr verən məhz ermənilərdir. Hələ II Qarabağ savaşı dövründə Tap-Qaraqoyunlu, Tərtər, Füzulinin kəndlərini atəşə tutub siyasi şantaja əl atırdılar. Yəni bu xislətə malik olan həmin bu erməni ordusu, həmin bu erməni hakimiyyəti, həmin bu erməni xalqıdır. Onların indi də öz güclərindən mülki şəxslərimizə qarşı istifadə edəcəkləri istisna olunmur. Ermənilər mülki əhaliyə qarşı müxtəlif silahlardan istifadə edərkən hansı cəzanı aldıqlarını da unutmamalıdırlar. Eləcə də Tovuz hadisələrində rəhmətlik milli qəhrəmanlarımız Polad Həşimovu, İlqar Mirzəyevi şəhid edən zaman bunun qarşılığını necə aldıqlarını yaxşı xatırlamalıdırlar”.

E.Şıxəliyev bildirib ki, Azərbaycanın müharibəni sivil, beynəlxalq hüquqa uyğun olaraq aparmasının nümunələri var. Onun sözlərinə görə, 44 günlük müharibə dövründə Azərbaycan tərəfindən heç bir mülki obyektlərə zərər verilmədi və dünya da bunu yaxşı bilir.

Hərbi ekspert qeyd edib ki, müharibədə Qarabağda yaşayan erməni əsilli əhalini yerlə-yeksan eləməyimiz üçün qarşımızda heç bir manea yox idi. Onun sözlərinə görə, öz ərazilərimiz olsa da, Xankəndindən bizə atəş açıldığına görə o şəhəri də əhali qarışıq yerlə-yeksan edə bilərdik. “Bizim müharibəni sivil qaydada aparmağımıza dair prinsiplərimiz var. Siyasi və hərbi iradəmiz birbaşa müharibənin də konvensiyalara uyğun aparılmasına yönəlikdir. Lakin Ermənistan üçün qırmızı xəttlər yoxdur.

Gələcəkdə Ermənistana qarşı istifadə olunacaq əsas reparasiya faktlarından biri də ermənilərin konflikt zonalarında bizim bölgələrdə törətdikləri vandalizm hərəkətlərinə, mülki əhaliyə qarşı apardıqları genosid siyasətinə qarşı atacağımız addımların əsasını təşkil edəcək. Ermənilər rayonlarımızı, mülki əhalimizi ateş altında saxlasalar da, gələcək də bunun məsuliyyətindən qaça bilməyəcəklər”.

✍ Tahirə Qafarlı

***Bu gündən yeni dərs ili başlayır. Bir neçə həftədir ki, valideynlər yeni dərs ili üçün məktəbli forması və ləvazimatların alış-verişinə başlayıblar. Onlar həm qiymətlərin bahalığından, həm də aldıqları məhsulların keyfiyyətsizliyindən gileyələnirlər. Valideynlər hesab edirlər ki, xüsusilə məktəbli geyimlərinin qiyməti məhsulun keyfiyyəti ilə qətiyyən uzlaşmır. Mövzu ətrafında suallarımızı iqtisadçı-ekspert Akif Nəsirli cavablandırıb.***



**Akif Nəsirli,**
iqtisadçı-ekspert

# Məktəb bazarlığı

## Nə qədər pul xərcləyirik?

***- Yeni dərs ilinin başlanması ilə əlaqədar Azərbaycanda ailələrin büdcə yükü də artıb. Məktəbli formalarının və məktəb ləvazimatlarının qiyməti orta statistik azərbaycanlı ailəsinin aylıq gəlirlərinə adekvatdırmı?***

- Hazırda məktəb bazarlığına daxil olan məhsullar keyfiyyətindən asılı olaraq 200-500 manat arasında dəyişir. Yəni, 200-250 manata məktəb bazarlığı etmək mümkündür. Bu, orta statistik azərbaycanlı ailəsinin büdcəsində xeyli gərginlik yaradır.

Düzdür, mən deməzdim ki, ümumiyyətlə, ailələr bu məbləği qarşılaya bilməzlər. Əlavə yük ailədə müəyyən çətinliklər yaradır. Bunun üçün təbii ki, bir çox ailələr bəzi işlərini təxirə salıb əvvəlcədən pul da yığırlar. Deyə bilərəm ki, paltarlar standart qiymətədir. Hesab edirəm, bu da düzgün deyil və qiymət keyfiyyətə görə müəyyən edilməlidir.

***- Geyimlərlə bağlı qiymət standart olsa da, valideynlər hesab edirlər ki, geyimlərin qiyməti məhsulun keyfiyyəti ilə qətiyyən uzlaşmır. Bu barədə nə deyə bilərsiniz?***

- Valideynlərlə tamamilə razıyam. İstənilən mühitdə rəqabət yoxdursa, orada keyfiyyətdən, qiymətlərin ucuzlaşmasından söhbət gedə bilməz. Bazar iqtisadiyyatı şəraitində bu iki parametri rəqabət tənzimləyir. Rəqabət olduqda şirkətlər bir-biri ilə bazar uğrunda mübarizə aparırlar. Onların mübarizəsi qiymətləri aşağı salmaq və keyfiyyəti yüksəltməkdən ibarətdir. Etiraf edək ki, bizdə belə mühit yoxdur. Bu sahədə inhisarçılıq Bakı Tikiş Evinə verilib. Bakı Tikiş Evi də arxayındır ki, onların bazarını heç kim əlindən ala bilməyəcək. Yəni, valideyn məcburdur ki, məhsul keyfiyyətsiz olsa da, həmin fabrikin məhsulunu alsın. Ona görə də mümkün qədər aşağı keyfiyyətli məhsullardan istifadə edirlər ki, daha çox gəlir əldə etsinlər. 25 manata təklif olunan məktəbli şalvarlarının maya dəyəri 7-8 manatdır. Bizim bazarın digər problemi isə mövsümi olaraq qiymətlərin artırılmasıdır. Onsuz da indi bütün məhsullar bahadır. İstər yeni dərs ili başlayanda, istərsə də hansısa bayramlarda qiymətlər təkrar bahalaşır. Məsələ burasındadır ki, bazar iqtisadiyyatı modelinin normal işlədiyi ölkələrdə bunun əksini müşahidə edirik. Elə qonşu Türkiyəni götürək. Hələ bu ölkədə bazar iqtisadiyyatı modeli tam oturuşmayıb. Orada mövsümə uyğun qiymətlər aşağı düşür, şirkətlər müxtəlif sərfəli kampaniyalar həyata keçirirlər. Azad bazar iqtisadiyyatında çalışan sahibkar üçün ən çətin məsələ qiyməti artırmaqdır. Tutaq ki, bəzi məhsulların maya dəyəri bahalaşır, dünyada enerjidaşıyıcılarının qiyməti artır. Bütün bunlara baxmayaraq, azad bazar iqtisadiyyatında çalışan sahibkar qiyməti artırmaqdan ehtiyat edir, bir neçə ay

> *25 manata təklif olunan məktəbli şalvarlarının maya dəyəri 7-8 manatdır*

zərərlə işləməyi də gözə alır. Bazarda kifayət qədər rəqib var və ona görə də bazarı itirməkdən qorxur. Bakı Tikiş Evinin isə belə bir qorxusu yoxdur.

***- Bazarda kifayət qədər oyunçu olarsa, vəziyyət müsbətə doğru dəyişə bilər?***

- Əlbəttə. Bu sahəni monopoliyadan azad etmək lazımdır. O zaman həm qiymətlər normallaşacaq, həm də alıcılara təklif olunan məhsulların keyfiyyəti yüksələcək. Eyni zamanda, valideynlər forma almaq üçün uzun növbələrdə dayanmaq məcburiyyətində qalmayacaqlar. Bizdə məhsulların dəyəri dövriyyə ilə nizamlanır. Hansı məhsul ki, bu gün çox satıldı, sabah həmin məhsul təxminən 1 manata qədər bahalaşmalıdır. Amma xaricdə dövriyyə artdıqca qiymətləri azaldırlar. Rəqabət mühiti var və sahibkar üçün alıcı məmnuniyyəti önəmlidir.

Yəni, problemdən yeganə çıxış yolu rəqabət mühitinin yaradılması və bazara yeni oyunçuların daxil olmasına imkan verilməsindədir.

✍ Sevinc



■ **Ümumtəhsil məktəblərinin rəhbər və pedaqoji heyətinə 15 Sentyabr - “Bilik Günü”nün təntənəli şəkildə qeyd edilməməsi tapşırılıb. Bu barədə Elm və Təhsil Nazirliyindən xəbər verilib.**

“Bildiyimiz kimi, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən çoxsaylı hərbi qulluqçumuz şəhid olub. Şəhidlərimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza Allahdan şəfa diləyirik! Bununla əlaqədar olaraq, ümumtəhsil məktəblərinin rəhbər və pedaqoji heyətinə 15 sentyabr - “Bilik Günü”nün təntənəli şəkildə qeyd edilməməsi tapşırılıb. Valideynlərin isə bu məsələni anlayışla qarşılamaları xahiş olunur.



■ **Mərkəzi Qan Bankında və bölmələrində kifayət qədər qan ehtiyatı var. TƏBİB-dən yayılan məlumatda qeyd edilir ki, sosial media istifadəçiləri arasında aktiv hərbi əməliyyatlar zamanı yaralanmış? hərbi qulluqçular üçün təcili qan lazım olduğu ilə bağlı xəbərlərə rast gəlinir:**

“Bu kimi məlumatların əsassız olduğunu vurğulayırıq. Əsassız yayılan məlumatlar vətəndaşlar arasında həyəcan və təşvişə səbəb olur. Bütün bunları nəzərə alaraq, sosial şəbəkə istifadəçilərini rəsmi sürətdə təsdiqini tapmamış məlumatları yaymamağa, belə bir halla rastlaşdıqları? zaman yalnız rəsmi qurumların məlumatlarına istinad etməyə çağırırıq?



■ **2022-ci ilin yanvar-avqust aylarında Azərbaycanda 84880,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz çox ümumi daxili məhsul istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,0 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 10,3 faiz artıb. ÜDM istehsalının 52,5 faizi sənaye, 7,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,9 faizi tikinti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə sahələrinin, 14,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,6 faizini təşkil edib.



■ **Ümumi çağırışların həlli dünya ictimaiyyətindən daha çox həmrəylik tələb edəcək, qarşıdan gələn aylar beynəlxalq sistemin gücünü sınamağa davam edəcək.**

Bu barədə BMT-nin Baş katibi Antonio Quterreş Dünya Təşkilatı Baş Assambleyasının 77-ci sessiyasının açılışında çıxışı zamanı deyib. "77-ci sessiyaya diqqət yetirsək, 76-cı sessiyanı müəyyən edən bir çox problem hələ də bizimlədir.

Biz təhlükəsizlik, insan hüquqları, davamlı inkişafın təmin edilməsi üzrə işlərin çərçivəsində təhlükədə olan dünya ilə qarşılaşırıq”, - deyə A.Quterreş deyib. BMT-nin Baş katibi münaqişələr, iqlim dəyişikliyi, inkişaf etməkdə olan ölkələrdə maliyyə qeyri-sabitliyi, yoxsulluq, aclıq və bərabərsizliyi əsas çağırışlar kimi müəyyən edib:



■ **“Laçın dəhlizinə alternativ yol 2023-cü ilin aprelin 1-dən fəaliyyətə başlayacaq”. Bunu Rusiya XİN-in MDB ölkələri üzrə Dördüncü Departamentinin direktoru Denis Qonçar deyib.**

“Son ay göstərilən səylərin əsas nəticəsi Laçın dəhlizinə alternativ yolun 2023-cü il aprelin 1-dən fəaliyyətə başlamasına dair ümumi anlayışın əldə olunması olub.

Bununla yanaşı, avqustun 30-dan etibarən hərəkət Laçın şəhərindən və dəhlizin köhnə yolunun təhlükəsizlik zonasında yerləşən digər yaşayış məntəqələrindən yan keçən müvəqqəti marşrutla həyata keçirilir”, - deyə Qonçar söyləyib.

Onun sözlərinə görə, Laçın dəhlizinin fəaliyyət rejiminin dəyişməməsi əsas əhəmiyyət kəsb edir:



■ **Sentyabrın 14-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə naziri qonaqları salamladıqdan sonra Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar barədə məlumat verib. Görüşdə Türkiyə ilə hərbi müttəfiqlik çərçivəsində digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də birgə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanaraq bu istiqamətdə Türkiyə Milli Müdafiə Universiteti ilə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

# Yeni tədris ili başlandı...

**_Bu gündən Azərbaycanda dövlət təhsil müəssisələrində yeni tədris ili başlayır. Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, 2022-2023-cü tədris ilində dövlət təhsil müəssisələrində ümumilikdə 1 616 214 nəfər şagird təhsil alacaq. Onlardan 158 297 nəfəri 1-ci, 147029 nəfəri 9-cu, 100 455 nəfəri isə 11-ci sinfə gedəcək. Bəs, görəsən, yeni dərs ilinə hazırlıq hansı səviyyədədir? Mövzu ətrafında müsahibimiz təhsil eksperti Nadir İsrafilovdur._**

## Gündəm

***- Nadir müəllim, bu gündən ölkədə yeni dərs ili başlayır. Yeni tədris ilinə nə dərəcədə hazırıq?***

- Biz hazır olsaq da, olmasaq da yeni dərs ili başlamalıdır. Dərs ilinə hazırlıq səviyyəmiz müəyyən konturlardan indidən də bəllidir. Tam dəqiq dərs ilinin ilk günlərindən biləcəyik ki, hazırlıq səviyyəmiz necədir. Hazırda əsas problemlərdən biri məktəbli forması ilə bağlıdır və valideynlər arasında bununla bağlı ciddi ajiotaj var. Bilirsiniz ki, hələ 2020-ci ildə Nazirlər Kabinetinin məktəbli formaları ilə bağlı təsdiq etdiyi qaydalar var. Elə o vaxt vahid formaya keçid etməli idik. Sonradan pandemiya ortaya çıxdı və bu məsələ təxirə salındı. Nəhayət, ötən il qərar verildi ki, 2022-23-cü tədris ilindən vahid forma tətbiq edilsin. Amma məlum oldu ki, biz bu işə hazır deyilik, tələskənliyə yol vermişik. Bakı Tikiş Evi etiraf etdi ki, bu işə hazır deyillər. Təbii ki, məktəbli forması olmadan da məktəbə getmək olar. Buna baxmayaraq valideynlər arasında təşviş yaranıb. Baxmayaraq ki, nazirlik səviyyəsində bununla bağlı bəyanatlar verilib və bildirilib ki, vahid forma bu il məcburi deyil.

***- Əgər məktəbli forması məcburi deyilsə, o zaman valideynlər nədən bu qədər təşvişədirlər?***

- Bizdə hər il forma problemi yaranır. Bu il də fərqli mənzərə deyil. Düzdür, qeyd etdiyim kimi, nazirlik səviyyəsində bəyan edilib ki, məktəbli forması məcburi deyil. Amma valideynlərdə yenə narahatçılıq var ki, birdən övladlarını forma olmadığından məktəbə buraxmazlar. Məhz təşviş də buna görədir, hamı istəyir forma əldə etsin. Görünür, burada hansısa maraqlı qüvvələr var. Hesab edirəm ki, Elm və Təhsil Nazirliyi bu məsələni hərtərəfli araşdırmalıdır. Panika yayan məktəb rəhbərlərinə ciddi xəbərdarlıq edilməlidir. Yeni dərs ilinin ilk gününün valideyn-məktəb qarşıdurması ilə başlaması arzuolunan deyil. Ola bilər ki, biz hələ gələn il də vahid məktəbli formasına keçidi təmin edə bilmədik. Çünki burada olduqca ziddiyyətli məsələlər var. Məsələn, biz hələ İctimai Şura üzvü olan zaman Bakı Tikiş Evinin nümayəndələri ilə məsələni müzakirə etmişdik. O zaman xeyli ziddiyyətli məqamlar ortaya çıxdı və fikir ayrılıqları yarandı.

***- Hansı ziddiyyətli məqamlardan söhbət gedir?***

- Məsələn, məktəbli formasının eskizlərində 4-5 rəngin verilməsi, hər məktəbin vahid formasının olması və s. kimi məqamlarda ziddiyyətlər yarandı. Qərar verilmişdi ki, hər məktəbin məktəb-valideyn komitəsi valideynlərin iştirakı ilə pedaqoji şurada məktəbin forma üçün hansı rəng çalarlarından istifadə edəcəyinə dair qərar qəbul etməli idi. Bu isə praktiki cəhətdən qeyri-mümkündür. Əgər söhbət vahid məktəbli formasından gedirsə, niyə məktəblər fərqli forma seçməlidirlər. İndi bu məsələni bir qədər yumşaltdılar və 2 rəng çalarından istifadə etdilər. Amma bu da doğru deyil. Təsəvvür edin ki, ildə minlərlə şagird yerdəyişmə edir. Şagird başqa məktəbə yerdəyişmə edəndə gərək həmin məktəbin formasını geyinsin. Axı, bu valideynlər üçün əlavə yükdür. Elə ailə var ki, məktəbə 3 uşaq yola salır.

***- Bilirsiniz ki, orta məktəb dərslikləri ilə bağlı hələ də müəyyən narazılıqlar var. Həm dərsliklərin dilinin çox çətin olması, həm***



**Nadir İsrafilov,**
təhsil eksperti

***məzmununun qənaətbəxş olmaması ictimaiyyəti ciddi narahat edir. Sizcə, bu problemin birdəfəlik aradan qaldırılmasına niyə təşəbbüs göstərilmir?***

- Dərsliklərin məzmunu və keyfiyyəti ilə bağlı mövzular həmişə müzakirə predmeti olub. dərsliklərdəki nöqsanlarla əlaqədar nəinki müəllim və valideynlər, hətta şagirdlər də öz iradlarını bildiriblər. Hətta nazirlik rəsmiləri də zaman-zaman bunu etiraf etmək zərurəti qarşısında qalıblar. Amma problemi qabartmaqla iş bitmir, onun həlli istiqamətində də konkret addım atmaq lazımdır. Biz hələ ki, bu addımı görmürük. Bundan başqa, bəzi pedaqoqların uşaqları akademik yükləməklə daha yaxşı öyrənəcəklərini zənn etmələri" fikri probleme kökündən yanlış mövqedən yanaşmadır. Uşaqların dərs yükünün optimallaşdırılması üçün müəllimlərlə işləməzdən əvvəl proqramları yüngülləşdirməli, dərslikləri 2-ci, 3-cü dərəcəli materiallardan azad etməliyik. Təhsil beyni inkişaf etdirməkdir, başı lazımsız məlumatlarla doldurmaq deyil. Məktəb öz yetirmələrinə lazımi bilik, bacarıq və vərdişlər aşılamaqla yanaşı, həm də cəmiyyət üçün fiziki və mənəvi cəhətdən sağlam nəsil yetişdirmək qayğısına qalmalıdır. Biz hələ də "keyfiyyətli təhsil" adı ilə uşaqlarımızı ifrat dərəcədə yükləməklə, onları bir növ istismar etmiş oluruq.

***- Nadir müəllim, bu yaxınlarda elm və təhsil naziri belə bir fikir səsləndirdi ki, bəzi müəllimlərin şagird qarşısına çıxması günahdır. Nazirin bu açıqlaması müəllimlərimizin savadsız olması anlamına gəlirmi?***

- Söhbət bəzi müəllimlərdən getsə belə, mən müəllimlərin savadsız olmasına dair istənilən iddialarla heç bir halda razılaşa bilmərəm. Bu, onsuz da dilə-dişə saldığımız müəllim peşəsinə növbəti zərbə olar. Sadəcə olaraq, hazırlıqlı müəllimlər var, zəif hazırlığa malik müəllimlər var, baxmayaraq ki, ikincilərin sayı birincilərdən o qədər də az deyil. Məhz buna görə də müəllimin peşə yararlığı və peşəkarlıq səviyyəsinin ölçülməsi və qiymətləndirilməsi məqsədilə sertifikasiya prosesin start verilib. Vəziyyətin belə hal alması da müəllimin günahı yox, daha çox "Təhsildə hansısa şəxslər tərəfindən buraxılan səhvlər"in nəticəsidir.

Əbəs yerə deyil ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda "Peşəkarlığa əsaslanan stimullaşdırıcı əməkhaqqı sisteminin olmaması, təhsil müəssisəsi səviyyəsində idarəetmənin qeyri-effektivliyi, müəllim hazırlığı üzrə infrastrukturun zəif olması müəllim nüfuzuna təsir edən amillər sırasında olması" xüsusi olaraq vurğulandı. Bütün bunlar nəzərə alınaraq, "təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməsi, strateji hədəf kimi müəllim karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması" zəruriliyi önə çəkildi.

***- Sertifikasiyadan söz düşmüşkən, bu prosesin ilkin nəticələri artıq məlumdur. Nəticələr barədə nə deyə bilərsiniz?***

- Bir məqamı vurğulayım ki, bir vaxtlar hamını müəllim imtahana çəkərdi, indi müəllimi imtahana çəkirik. Çəkək, cəmiyyət qarşısında müəllimin nə kimi məsuliyyət daşıdığını bir daha onun xatırladaq, lakin kimlərinsə uğursuzluqlarına bu qədər sevincək olmayaq, real duruma görə bir-birimizə "göz aydınlığı" verməyək. Bir də ki, sıravi müəllimlərə təqdim etdiyimiz testlərdə sual və tapşırıqları ifrat dərəcədə qəlizləşdirmək yolundan bir az çəkinək. Elə çıxmasın ki, guya imtahan edən başqa planetdən gəlib, imtahan verən də başqa bir yad planetlilərdəndir. Bir məqamı da nəzərə almalıyıq ki, nə qədər ki, müəllim hazırlığı ilə məşğul olanları deyil, yalnız sıravi müəllimləri imtahan edəcəyik, hədəf yenə müəllim olacaq. Digər bir məsələ də var ki, bu gün dövlət nümunəli təhsil sənədi olmayan, MİQ-dən kənar işə qəbul olunan, diaqnostik qiymətləndirilməyə buraxılmayan, halhazırda ümumi müəllimlərin 4 faizini təşkil edən 6 saata yaxın dərs deyən, 120 -150 manata işləyən 4 500-ə yaxın, onlardan bir qədər artıq məvacib alan, 6 saatdan 12 saata qədər dərs deyən 18 mindən artıq müəllim təhsil müəssisələrində çalışır. Onlar proseslərdən narahatdılar və nigarançılıqları da hardasa başa düşüləndir. Bəs, bu müəllimlərin taleyüklü məziyyətinə nə vaxt aydınlıq gətiriləcək? Bəlkə, fürsət varkən, daha 5 il gözləməyib, növbəti olaraq bu kateqoriyadan olan müəllimlərin sertifikasıyasını ertələyərək bu məsələyə birdəfəlik əncam çəkək? Elə olmasın ki, sabah ya o birisi gün "repetitor müəllim", "bunker repetitoru" ilə yanaşı, pedaqoji leksikonumuza "6 saatlıq müəllim", "Müəllimin üçdə biri" kimi yeni terminlər daxil olsun. Ümumiyyətlə "4-5 saat dərsi olan müəllimlər" nə deməkdir? Əgər o müəllimdirsə, niyə heç olmasa minimum 1 stavka-18 saat dərs yükü ilə təmin olunmamalıdır? Yox, əgər müəllim deyilsə, onun məktəbdə nə işi var? Belə olduğu halda, 4-5 saat dərs deyən müəllimin tutduğu mənsəb postda 4-5 saat baş girləyən məmurla nə fərqi olacaq? Hesab edirəm ki, bir stavkanın 3/1-i ilə işləyən müəllimlərin intizarına və iztirabına son qoyulmalı, dövlət nümunəli təhsil sənədi olmayan, MİQ - dən kənar işə qəbul olunan, DQ-yə buraxılmayan, müəllimlərin taleyinə nəhayət aydınlıq gətirilməlidir.

> Təlaş yayan məktəb rəhbərlərinə ciddi xəbərdarlıq edilməlidir

> Keyfiyyətli təhsil adı ilə uşaqlarımızı ifrat dərəcədə yükləməklə, onları bir növ istismar etmiş oluruq

> Mən müəllimlərin savadsız olmasına dair istənilən iddialarla heç bir halda razılaşa bilmərəm

✍ Sevinc

## Təhsil

**Məlum olduğu kimi, Azərbaycanda müəllimlərin sertifikatlaşdırma prosesinə başlanılıb. Prosesə ilk öncə ibtidai sinif müəllimləri cəlb olunub və hazırda müsahibə mərhələsi davam edir. Diaqnostik qiymətləndirmədən sonra müəllimlərin yenidən bilik sınağına çəkilməsi cəmiyyətdə birmənalı qarşılanmır. Bəziləri bu kimi sınaqların müəllimləri təkmilləşdirdiyi qənaətində olsalar da, digərləri əksinə, prosesin təhsilverənlərin peşəkarlığının artırılmasında heç bir rol oynamadığı qənaətindədirlər. Beynəlxalq təcrübədə müəllimlərin bu şəkildə sınağa çəkilməsi hallarına rastlanılmadığı kimi fikirlər də səsləndirilir.**

# Müəllim hazırlığında ciddi dəyişikliklərə ehtiyac var



■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən əməkdar müəllim Asif Cahangirov hesab edir ki, Azərbaycan təhsilinə sertifikatlaşdırmanın gətirilməsi və rəsmiləşdirilməsi müsbət addımdır:**

"Beynəlxalq təcrübədə müəllim fəaliyyətinin dəyərləndirilməsi üzrə müxtəlif yanaşmalar mövcuddur. Sertifikatlaşdırma (lisenziyalaşdırma, attestasiya kimi ifadələrdən də istifadə olunur) əsasən mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Bununla yanaşı, həmin proses məqsədindən asılı olaraq, müxtəlif formalarda yerli ərazi idarəetmə orqanı, yaxud məktəb səviyyəsində də aparıla bilər. Setifikatlaşdırma müəllimlərin işə qəbulu, müəllim fəaliyyətinin fərdi qaydada dəyərləndirilməsi və peşəkar inkişafa motivasiyasının artırılması, qabaqcıl müəllimlərin üzə çıxarılması, onların maddi və mənəvi rəğbətləndirilməsi və s. məqsədlərlə təşkil olunur.

Məsələn, əgər ABŞ-da hansısa müəllim Müəllimlərin Peşə Standartları üzrə Milli Şuranın ((National Board for Professional Teaching Standards - NBPTS) sertifikatına layiq bilinmişsə, bu, onun yüksək pedaqoji səriştələrə malik olduğuna dəlalət edir. 2012-ci ildən Avstraliyada müəllimlərin peşə standartları (Professional Standards for Teachers) əsasında təşkil olunan sertifikatlaşdırmanın iştirakçıları əldə etdikləri nəticəyə görə mütəxəssis (Proficient), yüksək ixtisaslı müəllim (Highly Ac-complished), aparıcı müəllim (Lead) dərəcələrini əldə edə bilərlər. Postsovet məkanında mərkəzləşdirilmiş sertifikatlaşdırma Gürcüstanda 2011-ci, Ukraynada isə 2019-cu ildən həyata keçirilir.

O ki qaldı ölkə müəllimlərimizin bu ildən başlanmış sertifikatlaşdırılmasına, Elm və Təhsil Nazirliyinin bu təşəbbüsü çox təqdirəlayiqdir. Azı ona görə ki, nəhayət, qabaqcıl müəllimlərimizin fədakar əməyi maddi cəhətdən fərqləndiriləcək və onların aylıq maaşı 35 faiz artacaqdır. Əlbəttə, bu strateji əhəmiyyətə malik bir prosesin başlanğıcındayıq. Əminəm ki, sertifikatlaşdırmanın keyfiyyəti ilbəil artacaq, alətlər təkmilləşəcək, sistem daha səmərəli qurulacaqdır. Ümumi təhsilimizin inkişafında və müasir tələblər səviyyəsinə çatdırılmasında müəllimlərimiz müstəsna rola malikdirlər. Azərbaycanın sosial-iqdisadi inkişafı baxımından onların pedaqoji səriştəliliyinin obyektiv şəkildə qiymətləndirilməsi, yüksək peşəkarlıq nümayiş etdirənlərin əmək fəaliyyətinin layiqincə, hətta deyərdim, yüksək səviyyədə mükafatlandırılması vacib strateji məsələdir".

Asif müəllimin ehtimalına görə, gələcəkdə sertifikatlaşdırmanı kənar təşkilatlar da apara bilər: "Bəli, bu gün prosesin mərkəzləşdirilmiş qaydada Elm və Təhsil nazirliyi tərəfindən öz öhdəsinə götürülməsi tam anlaşılandır. Məktəblərimizdə pedaqoji fəaliyyətin müasirləşdirilməsi, təhsilverənlərin peşəkar inkişafa sövq edilməsi, qabaqcıl müəllimlərin maddi stimullaşdırılması, sertifikatlaşdırma mexanizmləri və alətlərinin maksimum dərəcədə optimallaşdırılması və digər zəruri təşkilati-pedaqoji tədbirləri ilkin mərhələdə daha səmərəli məhz nazirlik həyata keçirə bilər. Sonradan isə sertifikatlaşdırma prosesinin təşkilində mövcud beynəlxalq təcrübələrdən bəhrələnmək, bu işlərə kənar qurumların cəlb etmək faydalı olardı".

A.Cahangirov başqa təkliflər də irəli sürüb: "Məsələn, testləşdirmə mərhələsində müəllimlərə verilən sualların çətinlik səviyyəsinə (asan, nisbətən çətin və çətin) uyğun təsnifləşdirilməsini düzgün hesab etmirəm. 100-300 şagirdə dərs deyən müəllimdən tədris etdiyi fənn üzrə asan sualın cavablandırılması tələbini necə dəyərləndirmək olar? Hörmətli nazir Emin Əmrullayevin Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransındakı məzmunlu və düşündürücü çıxışı və təqdimatdından bir fakt: sertifikatlaşdırmadan keçmiş 22 faiz ibtidai sinif müəllimi 30 baldan (50%-dən) aşağı nəticə göstərmişdir. Baxın, yeni tədris ilində belə müəllim azı 20 şagirdə dərs deyəcəkdir. Hətta onun aylıq maaşı 10 faiz artırılacaqdır da.

> Ali pedaqoji məktəblərimiz fənn bilicisi deyil, uşaqları və onlarla işləməyi hədsiz dərəcədə sevən əsl müəllim hazırlamalıdırlar

Nə deyim, sadəcə 20-25 illik pedaqoji staja malik belə müəllimlərin sinif otağına daxil olmasını gözlərimin önünə gətirirəm. Zəif müəllim güclü şagird yetişdirməyə qadir deyil! Bu barədə çox ciddi düşünməliyik. MİQ imtahanlarının statistikasına görə ölkəmizdə kifayət qədər ehtiyat müəllim qüvvəsi var".

Sonda ekspert müəllim hazırlığında ciddi dəyişikliklərin aparılması zərurətinə də toxunub: "Uzun illərdir bu məsələ ilə bağlı narahatlığımı bildirirəm. Ali pedaqoji məktəblərimiz fənn bilicisi deyil, uşaqları və onlarla işləməyi hədsiz dərəcədə sevən əsl müəllim hazırlamalıdırlar. Fənlər şagird formalaşdırmır. Şagird hər bir fənnin imkanlarından bəhrələnərək şəxsiyyət kimi formalaşır".

✍ Sevinc

# Azərbaycan çox böyük nailiyyətlərə imza atıb

**Son 30 ildə Azərbaycan çox böyük nailiyyətlərə imza atıb və ölkə bu illər ərzində kreditor ölkəyə çevrilib. Bunu Dünya Bankının baş iqtisadçısı Ayhan Kose Azərbaycan və Dünya Bankı arasında tərəfdaşlığın 30-cu ildönümünə həsr olunan tədbirdə çıxış edərkən deyib.**

Onun sözlərinə görə, aşağı gəlirli kateqoriyadan orta gəlirli kateqoriyaya daxil olandan sonra, bir çox ölkələr hiss edirlər ki, orta gəlirli tələyə düşürlər. "Azərbaycan bu tələyə dusməməlidir. Azərbaycan bu yoldan yayınmalıdır və yüksək gəlirli iqtisadiyyata aparan yolu seçməlidir", - deyə Ayhan Kose qeyd edib.

O həmçinin əlavə edib ki, inkişaf etmiş iqtisadiyyatı yaratmaq üçün güclü, məhsuldar özəl sektor, işlək institutlar və bərabər, dayanıqlı artım çərçivəsi olmalıdır.

"Buna nail olmaq üçün məhsuldarlığın artırılması olduqca vacibdir. Azərbaycanda iqtisadiyyatda dövlətin rolu dəyişməlidir. Dövlət əsaslı artımdan, dövlətin dəstəklənən artıma çevirmək lazımdır. Bunun dünyada bir çox nümunələri, təcrübələri var. Ümid edirəm ki, Azərbaycan bu yolu seçsə, həmin o orta gəlirli tələyə düşməyəcək",- deyə o əlavə edib.

# "Qeyri-bank kredit təşkilatlarına dair strategiya hazırlanır"

**Azərbaycan Mərkəzi Bankı maliyyə sektorunun iştirakçılıq səviyyəsinin genişləndirilməsi istiqamətində işlərin həyata keçirilməsini planlaşdırır.**

Bunu Azərbaycan Mərkəzi Bankının İdarə heyətinin sədri Taleh Kazımov Azərbaycan və Dünya Bankı arasında tərəfdaşlığın 30-cu ildönümünə həsr olunan tədbirdə çıxış edərkən deyib. Onun sözlərinə görə, bu baxımdan mikromaliyyələşdirilmə və qeyri-bank kredit təşkilatlarına dair ayrıca strategiya hazırlanır, hansı ki, maliyyə xidmətlərinin inklüzivliyinin artırılmasını planlaşdırır. "Mikrosahibkarlar və istehlakçılar üçün hazırda biz bir layihə maliyyələşməsi çərçivəsini sekyuritizasiya və sindikasiya çərçivələrini hazırlamaqdayıq. Bu yaxınlarda onlar qəbul edilərək bazarlarda tətbiq ediləcək.

Ümid edirik ki, Azərbaycanda real sektorun maliyyələşməsində onun böyük töhfəsi olacaq" - deyə, Taleh Kazımov qeyd edib.

# Bakının tıxac dərdi

**Azərbaycanda yeni tədris ili dərsləri başlayır. Proqnozlara görə, yeni dərs ilinin başlanması ilə paytaxt küçələrində bəlkə də son illər rast gəlmədiyimiz tıxaclara şahidlik edəcəyik. Bunun səbəbləri müxtəlifdir. Ekspertlər hesab edirlər ki, ilk növbədə, metropoliten yerində sayır. On ildə bir stansiyanın istismara verilməsi qənaətbəxş hesab olunmur. Paytaxtın ictimai nəqliyyatının bel sütunu olan avtobuslarla sərnişindaşıma çox ciddi iqtisadi, texniki və təşkilati böhran yaşayır. Dövlətin ciddi dəstəyi və müdaxiləsi olmasa, bu sektorun çöküşü çox uzaqda deyil.**



## Problem

Qiymətlərin ucuzlaşması son illərdə taksi minik avtomobillərinin sayının dəfələrlə artmasına gətirib çıxarıb. Ən pisi isə odur ki, hansısa dövlət qurumunun bu bəlanı həll etmək istiqamətində aydın fəaliyyət planı, ideyası yoxdur. Bəzi mütəxəssislər isə hesab edirlər ki, paytaxt yollarında tıxacların aradan qaldırılması üçün şəxsi avtomobillərdən istifadəni maksimum dərəcədə azaltmaq lazımdır. Bu məqsədlə paytaxtda şəxsi avtomobillərdən istifadəyə görə yüksək məbləğdə vergilərin tətbiq olunması, vətəndaşlar arasında ictimai nəqliyyatdan istifadənin təşviq edilməsi təklif olunur? Bəs, görəsən, bu təklifin reallaşması nə dərəcədə mümkündür? Sözügedən təklif paytaxtdakı tıxacların aradan qaldırılması üçün çıxış yolu ola bilərmi?

■ **Məsələni hafta.az-a şərh edən nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyib ki, belə bir təklifin heç bir əsası yoxdur:**

"Bu olduqca absurd təklifdir, heç bir əsası da yoxdur. Bəzən belə təkliflər ortaya atılır ki, insanların fikri əsas məsələdən yayınsın. Bu cür təkliflərlə cəmiyyətdə ajiotaj yaratmaq istəyirlər. Bu, yəqin ki, təklif olaraq qalacaq. Əslində, Bakıda tıxac problemi daim mövcud olub və bundansonrakı illər üçün də müsbətə doğru dəyişiklik gözlənilmir. Tıxacların qarşısının alınması və ya azaldılması ilə bağlı Bakı şəhərində hansısa tədbirlərin görülməsinin şahidi olmamışam. Ona görə də dərslər başlayandan sonra sıxlıq və tıxacların artması istisna deyil".

> *Vətəndaşlara yüksək xidmət göstərilsə, onlar fərdi nəqliyyat və ya taksilərdən deyil, məhz marşrutlardan istifadə edərdi*

Ekspert vurğulayır ki, paytaxtdakı tıxacların obyektiv və subyektiv səbəbləri var və indiyədək tam aradan qaldırılmasa da, mərhələ-mərhələ sıxlığın qarşısını almaq olardı: "Əvvəlcə infrastrukturun yenilənməsinə, modernləşdirilməsinə ehtiyac var. Bakı şəhərindəki tıxacların səbəblərindən biri köhnə, yararsız avtomobillərin çoxluğudur. Bütün bölgələrdən Bakıya işləmək üçün çoxlu vətəndaş gəlir və onlar rahat hərəkəti təmin etməkdən ötrü ucuz və köhnə avtomobillər alırlar. Hazırda ictimai nəqliyyat əlçatan deyil. Vacib olan ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsidir. Vətəndaşlara yüksək xidmət göstərilsə, onlar fərdi nəqliyyat və ya taksilərdən deyil, məhz marşrutlardan istifadə edərdi. Bu sahədə vəziyyət ürəkaçan olmadığından, tıxacların qarşısını almaq mümkün olmayacaq.

Digər tərəfdən, parklanma problemi, yollarda təmir-tikinti işlərinin müvafiq vaxtlarda aparılmaması, hər hansı sahibkar tərəfindən yolun bir hissəsinin zəbt olunaraq obyektin tikilməsi kimi hallar tıxacların yaranmasının səbəbidir və s. Aidiyyəti qurum və təşkilatlar bu məsələləri mərhələli həll etmək əvəzinə, ara-sıra mediaya və ya sosial şəbəkələrə ağlasığmaz "ideyalar" atırlar. Nəticədə, öz səriştəsizliklərini ört-bastır etməyə çalışırlar. Halbuki Bakıda tıxacları mərhələli şəkildə aradan qaldırmaq mümkündür. Bunun üçün sadəcə istək lazımdır. 2018-ci ildə cənab Prezident "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı"nı imzalayıb. Həmin Dövlət Proqramı həm də bir növ yol xəritəsidir. Sadəcə həmin sənəddə yer alan müddəaları həyata keçirmək kifayətdir ki, Bakının tıxac problemi həllini tapsın. Amma aidiyyəti qurumlar hansısa maraqlara görə bu sənədin icrasını həyata keçirməkdə istəkli deyillər".

✍ *Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin PEŞMANI



Gürcüstanın məhkum olunmuş eks-prezidenti Mixail Saakaşvili vətənə qayıtmaqla səhv etdiyini başa düşür. Bu barədə məlumatı Saakaşvilinin oğlu Eduard atasına klinikada baş çəkdikdən sonra deyib. Gürcüstanın eks-prezidenti uzun sürən aclıq aksiyasının nəticələrinə görə Tbilisidəki "Vivamed" klinikasında müalicə alır. Həkimlər eks-prezidentin vəziyyətini stabil qiymətləndirsələr də, ona qoyulan diaqnoz ictimaiyyətə məlum deyil.

### Həftənin XƏSTƏSİ



Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlunun səhhətində problem yaranıb. İr müddətdir, müxtəlif xəstəliklərdən əziyyət M. Mirəlioğlu müayinə və müalicə üçün Türkiyəyə gedib. O, Türkiyəyə ailə üzvləri ilə birlikdə yollanıb. KXCP sədrinin səhhətində problemlərin ciddi olduğu bildirilir.

### Həftənin VİZALISI



ABŞ BMT Baş Assambleyasının Nyu-Yorkda keçiriləcək iclasında iştirak edə bilməsi üçün Rusiyanın xarici işlər naziri Sergey Lavrova viza verib. Bu barədə Rusiya XİN məlumat yayıb. Qeyd olunub ki, XİN sədri ilə birgə iştirak edəcək nümayəndə heyətindən isə yalnız bir neçə nəfərə viza verilib.

### Həftənin TƏLƏBİ



"Azərbaycan Ermənistanla Qarabağ məsələsini müzakirə etməkdən imtina edir". Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı deyib. Onun sözlərinə görə, Azərbaycan bunu Qarabağın Azərbaycanın daxili məsələsi olması ilə əlaqələndirir. "Azərbaycan, həmçinin Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağı tələb edir", - deyə Paşinyan söyləyib.

### Həftənin QƏLƏBƏSİ




Azərbaycanın yunan-Roma güləşçisi Taleh Məmmədov Serbiyanın paytaxtı Belqraddakı dünya çempionatında bürünc medal görüşünə çıxıb. 63 kq-da yer alan idmançı ermənistanlı Qraçya Poqosyanla qarşılaşıb. Rəqibi üzərində 10:4 hesablı qələbə qazanan Məmmədov fəxri kürsünün 3-cü pilləsinə qalxıb.

### Həftənin QADAĞASI



Bakıda yol hərəkəti qaydalarını mütəmadi olaraq pozduğu üçün tez-tez gündəmə gələn 77 yaşlı Əliyar Dadaşovun sürücülük vəsiqəsinə məhdudiyyət qoyulub. Son aylarda yol-hərəkəti qaydalarını ardıcıl pozan, digər hərəkət iştirakçıları üçün təhlükəli vəziyyət yaradan 10-MM-100 dövlət qeydiyyat nişanlı "Toyota Prado" markalı avtomobilin sürücüsünün nəqliyyat vasitələrini idarəetmə hüququ verən sənədi bu gün qüvvədən düşüb.

✍ *Azad Əliyev*

# "Nar"ın dəstəyi ilə 10 abituriyent tələbə adını qazandı

R



**"Nar"ın "Gələcəyini Qur!" layihəsi ilə əməkdaşlıq çərçivəsində universitetə hazırlıq xərclərini öz üzərinə götürdüyü şagirdlərin hamısı tələbə adını qazanıb. Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən olan məktəblilərin 100 %-lik nəticəsi münasibəti ilə "Nar" bu gəncləri təbrik edir və növbəti təhsil pilləsində də onlara müvəffəqiyyət arzu edir.**

Qeyd edək ki, "Gələcəyini Qur!" layihəsi təhsilini davam etdirmək istəyən 11-ci sinif şagirdlərini müəyyən edərək onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. Elm və Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin maliyyə dəstəyi ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən olan potensiallı gənclərin ali təhsilə yiyələnmələrinə dəstək olmaqdır. "Nar" elm və təhsilə dəstək istiqamətində davamlı layihələr həyata keçirir. Mobil operatorun korporativ sosial məsuliyyət istiqamətində gördüyü layihələrlə nar.az/projects vasitəsilə tanış ola bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

ELAN

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 02/1 Lot üzrə Hərrac 28.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: İsrafilova Arzu Xanoğlan qızına məxsus Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Aşıq Pəri küçəsi 53 ünvanda yerləşən 0,0428 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) satış qiyməti - 47880 manat.

Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 03/1 Lot üzrə Hərrac 28.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: Əliyev Zöhrab Zülfi oğluna məxsus Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən 0,12 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) satış qiyməti - 60480 manat.

Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır.

Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

## GÜNÜN FOTOSU



Zelenski İzyuma getdi

# Sərhəd təxribatına kənar baxış

**Kutay Karaca,**
Türkiyəli hərbi ekspert

Ermənistanın gələcəyi Azərbaycan və Türkiyə ilə yaxşı qonşuluq münasibətlərinin var olmasından çox asılıdır.

Səh. 5

## STATİSTİKA



■ **Əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 25,7 faiz artaraq 2022-ci il avqust ayının 1-nə milli valyuta ekvivalentində 10,817,1 milyard manat təşkil edib.**

Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında qeyd olunub. Bildirilib ki, əmanətlərin 60,1 faizi milli, 39,9 faizi xarici valyutada qoyulub, milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 36,6 faiz, xarici valyutada qoyulan əmanətlərin məbləği isə 12,2 faiz artıb.



Səh. 7

# Müəllim hazırlığında ciddi dəyişikliklərə ehtiyac var